Bu bir xalq qəzetidi
ƏDALƏT

## XİN: Azərbaycan Türkiyənin beynəlxalq hüquqa söykənən bütün addımlarını qətiyyətlə dəstəkləyir




**Azərbaycan tərəfi tarixən Aralıq dənizi bölgəsinin inkişafı və tərəqqisində mühüm rol oynamış qardaş Türkiyənin bölgədə sülh və sabitliyin təmin edilməsinə yönəlmiş beynəlxalq hüquqa söykənən bütün addımlarını qətiyyətlə dəstəkləyir və mövcud gərginliyin tezliklə həllini tapacağına ümidini ifadə edir. Bu barədə Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Türkiyənin Şərqi Aralıq dənizində fəaliyyəti və bu xüsusda Ermənistan XİN-in açıqlaması barədə sualı cavablandırarkən deyib.**

L.Abdullayeva deyib: "Bu xüsusda, üçüncü tərəflərin vəziyyətdən özlərinin bölgə dövlətlərinə olan ədavət və qərəzli yanaşması üçün fürsət kimi istifadə etməsi cəhdləri qətiyyətlə rədd edilməlidir. Ermənistan tərəfinin Türkiyəyə qarşı əsassız ittihamlar ehtiva edən mövqeyi və bəyanatları Aralıq dənizi hövzəsində müşahidə olunan həssas vəziyyətdən özünün dar siyasi maraqları üçün sui-istifadə etmək cəhdi kimi pislənilməli və rədd edilməlidir".

## Baş Prokurorluğun veb-saytının təqdimatı keçirilib

**Müasirləşən informasiya axarına qoşulmaq məqsədilə Baş Prokurorluğun müasir standartlara cavab verən veb-saytı ictimaiyyətin istifadəsinə verilib. Baş Prokurorluqdan Adalet.az-a verilən məlumata görə, sayt ümumi dizayn, məzmun, istifadəçi rahatlığı, texniki imkanlar baxımından əsaslı şəkildə yenidən qurulub.**

Baş prokuror Kamran Əliyevin sədrliyi ilə keçirilmiş təqdimat mərasimində Baş prokurorun müavinləri, o cümlədən Baş Prokurorluğun bir sıra idarə və şöbə rəisləri iştirak etmişlər.

Yeni resursun təqdimatını həyata keçirən Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Murad Dadaşov prokurorluq orqanlarında daim informasiya texnologiyaların yaradılması və tətbiqi istiqamətində tədbirlərin görüldüyünü vurğulamış, saytın təhlükəsizlik parametrlərinə və bu günün tələblərinə tam olaraq cavab verdiyini, daha rahat naviqasiya ilə seçilən yeni saytda prokurorluq orqanlarının fəaliyyəti haqqında ətraflı məlumatların təqdim olunduğunu diqqətə çatdırmışdır.

Təqdimat mərasimində çıxış edən Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri Günay Səlimzadə informasiya texnologiyalarının tətbiq səviyyəsinin dövlət idarəetməsinin şəffaflığının əsas göstəricilərindən biri olduğunu qeyd etmiş, saytda prokurorluq orqanlarının fəaliyyətindəki dəyişikliklər, yeniliklər, ictimaiyyət tərəfindən maraq göstərilən məsələlər üzrə, habelə rəhbərliyin xüsusi əhəmiyyət kəsb edən görüş və səfərləri barədə məlumatların daim yenilənəcəyi barədə məlumat vermişdir.

**Hazırda Baş Prokurorluğun saytına www.genprosecutor.gov.az və www.prokurorluq.gov.az ünvanından daxil olmaq mümkündür.**

## Azərbaycanda yanğınların ən çox harada baş verdiyi açıqlanıb




**2020-ci ilin I yarımilliyi ərzində Azərbaycanda baş vermiş yanğın hadisələrindən təhqiqatı aparılmış yanğınların sayı 1121 olub.**

Fövqəladə Hallar Nazirliyindən Adalet.az-a verilən məlumata görə, yanğın hadisələri zamanı 23 nəfər həlak olub, 61 nəfər xəsarət alıb, bu da ötən illə müqayisədə yanğından həlak olanlar üzrə 13 nəfər və ya 36% azdır, xəsarət alanlar üzrə 55 nəfər və ya 47% azdır. Yanğınlar əsasən çoxmənzilli yaşayış binalarında və fərdi evlərdə (819 yanğın hadisəsi) baş verib. Nəqliyyat vasitələrində yanğınların sayı 178, açıq sahələrdə 54, digər yanğınların sayı isə 70 olub. Çoxmənzilli yaşayış binalarında və fərdi evlərdə yanğınlar zamanı 18 nəfər, nəqliyyat vasitələrində 4 nəfər, digər yanğınlarda isə 1 nəfər həyatını itirib.

## AZƏRBAYCANDA BEYNƏLXALQ TƏHSİL FORUMU KEÇİRİLƏCƏK

Bax:səh-3

## Baş infeksionist koronavirusun ikinci dalğası barədə danışdı



**Ölkədə koronavirus pandemiyasının ikinci dalğasının baş verməməsi üçün bizə tövsiyə olunan və qoyulan qaydalara riayət etməliyik. Bunu Trend-ə açıqlamasında Azərbaycanın baş infeksionisti Cəlal İsayev deyib. Onun sözlərinə görə, xəstəliyin yenidən kəskinləşəcəyi ilə bağlı problem bütün dünyanı narahat edir:**

"Koronavirusun ikinci dalğası barədə söhbətlər tək Azərbaycanda deyil, bütün dünyada gedir. Bəli, əgər yoluxma varsa, artma ehtimalı da var, ancaq hazırda bu barədə proqnozlar vermək tezdir. Hər şey özümüzdən asılıdır, qoyulan tələblərə riayət etsək, bu olmaya da bilər".

C.İsayev xəstəliyin niyə məhz payız aylarında arta biləcəyi barədə suala da aydınlıq gətirib. Onun sözlərinə görə, koronavirus soyuq temperatura dözümlüdür: "Bu aylarda bədənin mühitə uyğunlaşması baş verir və orqanizmdə müəyyən gerilələr ola bilər. Həmçinin payızda digər infeksiyaların baş qaldırması və orqanizmi zəiflədən faktorların artması bu xəstəliyin inkişafına şərait yarada bilər. Ona görə də payız fəsli virusun inkişafı üçün əlverişli dövrdür".

Bu bir xalq qəzetidi

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

Gündəlik hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 115 (5775) 20 avqust 2020-ci il

Qiyməti 30 qəpik

## Səbaildə narkotik və psixotrop həblər satan şəxs saxlanılıb



**Səbail rayon Polis İdarəsi və 9-cu Polis Bölməsi əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi və satışı ilə məşğul olan şəxs saxlanılıb.**

Daxili İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, əməliyyat zamanı paytaxt sakini Elvin Muradov tutularaq istintaqa təqdim edilib. Onun üzərində şəxsi axtarış aparılan zaman 50 qram qurudulmuş marixuana, həmçinin ümumilikdə 295 ədəd güclü təsiridici psixotrop maddələr olan ekstazi və preqabalin həbləri aşkar olunaraq götürülüb. Elvin Muradov ifadəsində şəxsiyyəti istintaqla araşdırılan və xarici ölkələrdən birində yaşayan "Samir" adlı şəxsin sifarişi ilə Bakı şəhərində narkotik vasitələrin satışını təşkil etdiyini bildirib.

Faktla bağlı Elvin Muradov barəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb və o, təqsirləndirilən şəxs qismində istiintaqa cəlb olunub. Saxlanılan şəxsin cinayət əlaqələrinin müəyyən edilməsi stiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Bakı polisi sakinlərə müraciət etdi



**Bakı şəhər Baş Polis İdarəsi paytaxt sakinlərinə müraciət edib. İdarədən verilən məlumatda bildirilir ki, fəaliyyətinə icazə verilmiş sahələr üzrə xüsusi karantin, zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji tələblərin tam və hərtərəfli təmin olunması üçün polis və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən nəzarət-profilaktik tədbirlər gücləndirilib.**

**İstehsal, xidmət və ictimai iaşə sektorlarında müştərilərin qəbulu, xidmətin sanitar-epidemioloji normalara uyğun aparılması və insanlar arasında sosial məsafənin qorunması məqsədilə paytaxtın bütün ərazilərində naryad qrupları təlimatlandırılıb.**

**İctimai iaşə sektorunda açıq hava sahələrində müştərilərə xidmətlərin həyata keçirilməsi zamanı epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin qaydalarının tələblərinə ciddi əməl olunmasına nəzarət həyata keçirilir.**

**Paytaxt sakinlərinin diqqətinə çatdırılır ki, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən (tibbi maska, parça maska, respirator və sair) istifadə və insanlar arasında ara məsafəsinə dair tələblərə əməl edilməməsi İnzibati Xətalar Məcəlləsinin 211.2-ci maddəsi ilə, qalan digər tələblərin pozulması isə 211.1-ci maddəsi ilə inzibati xətaya səbəb olur.**

**Mövcud qayda və tələblərə əməl etməyən, fəaliyyətinə icazə verilən sahibkarlıq subyektlərinin və onların vəzifəli şəxsləri barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcəkdir.**

## Azərbaycan əhalisi ən çox pullarını hara xərcləyir?




**2020-ci ilin yanvar-iyul aylarında Azərbaycan istehlakçıların pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 53,8 faizi ərzaq məhsullarına, içkilər və tütün məmulatlarının alınmasına xərcləyib.**

Adalet.az-ın məlumatına görə, həmçinin əhali pərakəndə ticarət şəbəkəsində xərclədiyi vəsaitin 14,1 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,4 faizi elektrik malları və mebellərin, 5,4 faizi avtomobil benzini və dizel yanacağının, 1,8 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 0,8 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 18,7 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Ünumilikdə 2020-ci ilin yanvar-iyul aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 21,4 milyard manatlıq, o cümlədən 11,5 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 9,9 milyard manatlıq qeyri-ərzaq malları satılıb.

## Gözdən əlillər üçün "ağıllı əlcəklər" hazırlanacaq



**Türkiyədə gözdən əlillər üçün "ağıllı əlcəklər" hazırlanacaq. "Demokrat" xəbər verir ki, İzmir İqtisad Universitetində başladılan layihə ilə gözdən əlil şəxslər istədikləri rəng və üslubda geyim seçə biləcəklər.**

Universitetdən bildirilib ki, bu əlcəklərin moda ilə əlaqəli bir çox məsələdə gözdən əlillərə kömək edəcəyi gözlənilir.

Yüngül, antibakterial və yuyula bilən parça ilə istehsal olunmağı hədəfləyən əlcəyin üzərinə kamera yerləşdiriləcək. Minlərlə geyim növü və rənglərhaqqında məlumatlarımüəyyən edən proqram yaradılaraqəlcəkdəki elektron hissəyə qeyd olunacaq. Gözdən əlil istifadəçi "ağıllı əlcəklər"lə geyimə toxunduqda kamera paltarın şəklini çəkəcək, onunrəngini və modelini səsləndirəcək. Eyni zamanda, seçilmiş geyimlə hansı modellərin uyğun olacağı ilə bağlı təklifləri də sadalayacaq. Əlcəkdəki elektron hissə asanlıqla çıxarıla, əlcək yuyulduqdan sonra yenidən istifadə edilə bilər.

## Məktəb direktorları ilə tədris ilinə hazırlıq müzakirə edilib



**Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva ölkənin müxtəlif regionlarından olan 30-a yaxın ümumi təhsil müəssisəsinin direktorlarının iştirakı ilə videokonfrans keçirib.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, görüşdə Məhəbbət Vəliyeva koronavirus pandemiyası dövründə 2020-2021-ci tədris ilinə hazırlıqla bağlı görülən işlər barədə danışıb.

Müxtəlif təkliflər, o cümlədən Təhsil İnstitutu tərəfindən verilmiş ssenarilər və onların icra mexanizmi haqqında iştirakçılara məlumat verilib.

Görüş zamanı çıxış edən direktorlar 2020-2021-ci tədris ili ilə bağlı öz təkliflərini bildirib, onlarda yaranan sualları səsləndiriblər.

Qeyd edək ki, görüşün nəticələri təlimatların və metodik göstərişlərin hazırlanmasında nəzərə alınacaq.

### *Oxucuların nəzərinə!*

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2,4,6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## Qələndər Xaçınçaylının vəziyyəti stabil olaraq qalır



**Tanınmış yazıçı, publisist və qəzetimizin keçmiş şöbə müdiri Qələndər Xaçınçaylının vəziyyəti stabil olaraq qalır. Onun müalicəsi ilə maraqlanan millət vəkili, həkim Rəşad Mahmudov və Yeni Klinik Xəstəxananın həkimi, bilavasitə müalicəsi ilə məşğul olan doktor Kəmalə xanım Qələndər Xaçınçaylının analizlərində başqa xəstəliklərin üzə çıxdığını bildiriblər.**

Bununla yanaşı yazıçıda COVID-19 simptomlarının az da olması müəyyən edilib. Inşallah, tezliklə yaxşı olar.

## ABŞ-da güllə əvəzinə tibbi maska atan "silah" düzəltdilər

**Amerikalı "YouTube" bloqeri Allen Pen maska "güllələyən" pnevmatik silah hazırlayıb.**

"Meduza" xəbər verir ki, cihaz təkcə maskanı üzə vurmur, həm də onu dörd iplə bağlayır. Pen cihazı özündə və maniken üzərində test edib. O, yeni "silah"ı insanlar üzərində tətbiq etməküçün Kaliforniyanın cənubundakı Hantinqton-Biç şəhərinə gedib. Pen əmin idi ki, bu şəhərin sakinləri demək olar, maska taxmırlar. Yutuber oradayoldan keçənləri təcrübəsində iştirak etmək üçün dilə tutub.

## Vəzifəli şəxsin meyiti dərədən tapıldı



**Yardımlı rayonunda dərədə kişi meyiti tapılıb. Report-un məlumatına görə, Tahirli kənd sakini Təyyar Sərhadalı oğlu Məhərrəmov üç gün əvvəl meşə gözətçisi olduğu əraziyə getmək üçün avtomobilini aşağı kənddəki həyətlərdən birində saxlayıb. Ailə üzvləri iki gün ərzində T.Məhərrəmovun qayıtmadığından narahat olduqlarına görə polis şöbəsinə məlumat veriblər.**

Bu gün meşəbəyinin meyiti Hanoba meşəsindəki dərədə aşkar olunub. Hadisənin hansı şəraitdə baş verməsi barədə hələlik məlumat yoxdur.

Mərhumun meyiti müayinə olunmaq üçün aidiyyəti üzrə təhvil verilib. T.Məhərrəmovun üç ay əvvəl meşəbəyi təyin olunduğu bildirilir.

Faktla bağlı Yardımlı Rayon Prokurorluğunda araşdırma aparılır.

## BELARUSDA VƏZİYYƏT UKRAYNADAN FƏRQLİDİ

Bax:səh-2

## Görədildə yağışın fəsadları aradan qaldırılıb, kəndin yolu bərpa edilib



**İki gün əvvəl yağan güclü yağışlar nəticəsində Abşeron rayonunun Görədil kəndində yaranan fəsadlar aradan qaldırılıb.**

Bu barədə Görədil kənd bələdiyyəsinin sədri İlqar Məmmədov bildirib. Onun sözlərinə görə, yağış kəndin yollarından birini tamamilə yarasız vəziyyətə salıb:

"Leysan xarakterli yağışlar Görədil kəndində uzunluğu 700 metr olan Fətəli xan Xoyski küçəsində bir sıra fəsadlar törədərək yararsız hala salmışdı. Bu yol relyefinə görə yamac halında olduğundan digər küçələrdən də yığılan sular bu ərazidən keçir. Su axını güclü olduğu üçün yolun üz qatını yuyub aparmışdı. Hadisədən dərhal sonra rayon rəhbərliyinin tapşırığı əsasında yaranan problemlərin aradan qaldırılması üçün işlər başlanıldı. Qısa bir zamanda bələdiyyə tərəfindən həmin küçədəki vəziyyət aradan qaldırıldı".

İ.Məmmədov əlavə edib ki, hazırda bələdiyyə əməkdaşları digər küçələrdəki problemlərin də aradan qaldırılması üçün işlər görürlər.

## GÜNÜN LƏTİFƏSİ

Məhəllə dükanının borc dəftərində adı olan Mais kişi içəri daxil olub satıcıdan borc dəftərini istəyir.

Satıcı sevincək:

**- Mais kişi, inşallah borcunu qaytarırsan...**

Mais kişi:

**- Yox, ay oğul, Həccdən yeni qayıtmışam, istəyirəm adımın qarşısına Hacı sözü yazam.**

## Zaqatalada 18 ədəd subartezian quyusunun qazılmasına 1,26 milyon manat ayrılıb



**Prezident İlham Əliyev Zaqatala rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Zaqatala rayonunun əhalisi 62916 nəfər olan 17 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 18 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"ndə Azərbaycanın rayonlarında su təchizatının yaxşılaşdırılması məqsədilə subartezian quyularının qazılması üçün göstərilmiş vəsaitin 1,26 milyon (bir milyon iki yüz altmış min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

## Həsən Seyidbəylinin 100 illik yubileyi qeyd ediləcək

**Prezident İlham Əliyev Həsən Seyidbəylinin 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.**

2020-ci ilin dekabr ayında Azərbaycan mədəniyyətinin tanınmış nümayəndəsi, kinodramaturq, rejissor və ssenarist, Xalq artisti Həsən Mehdi oğlu Seyidbəylinin anadan olmasının 100 illiyi tamam olur.

Həsən Seyidbəyli ssenari müəllifi olduğu və rejissor kimi quruluş verdiyi yüksək bədii keyfiyyətə malik, eləcə də ifadə vasitələrinin rəngarəngliyi və süjet xəttinin dolğunluğu baxımından seçilən filmlərlə Azərbaycanın kino sənəti salnaməsinə yeni səhifələr yazmışdır. Onun həyat həqiqətlərinə sədaqətlə yaradılan və mənəvi zənginlik, əxlaqi saflıq, dərin zövq aşılayan uğurlu ekran əsərləri, xüsusilə "Nəsimi" tarixi bədii filmi milli kinematoqrafiyanın nailiyyətləri sırasında özünəməxsus layiqli yer tutur. Həsən Seyidbəyli Azərbaycan Kinematoqrafçılar İttifaqına rəhbərlik etdiyi uzun illər ərzində dünya kinosunun qabaqcıl təcrübəsindən lazımınca bəhrələnməklə respublikada kinematoqrafiya fəaliyyətinin təşkilinə və kino sənətinin inkişafına əhəmiyyətli töhfələr vermişdir. Meydana gətirdiyi sanballı nəsr nümunələri Həsən Seyidbəyliyə ədəbiyyat aləmində geniş şöhrət qazandırmışdır.

Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xalq artisti Həsən Seyidbəylinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll edəcək.

## İnvestisiya Holdinqinin İdarə Heyətinə sədr təyin edildi

**Prezident İlham Əliyev M.B.Eynullayevin Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Mətin Balasən oğlu Eynullayev Azərbaycan İnvestisiya Holdinqinin İdarə Heyətinin sədri təyin edilib.

## Marqerita Kosta "Dostluq" ordeni ilə təltif edilib

**Prezident İlham Əliyev Marqerita Kostanın "Dostluq" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan Respublikası ilə İtaliya Respublikası arasında dostluq və qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsində xüsusi xidmətlərinə görə Marqerita Kosta "Dostluq" ordeni ilə təltif edilib.

## *820 nəfər daimi yaşamaq üçün Azərbaycana gəlib*

**Bu il 820 nəfər daimi yaşamaq üçün Azərbaycana gəlib.**

Cari ilin yanvar-iyun aylarında Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 820 nəfər gələn, Azərbaycandan isə 374 nəfər gedən qeydə alınıb.

Bununla da bu il miqrasiya saldosu müsbət 446 nəfər təşkil edib.

# Ağ Ev Azərbaycana vəsait ayırıb

**Ağ Ev "Qadınların Qlobal İnkişafı və Rifahı Naminə" Fondundan Azərbaycana 2 milyon dollar vəsait ayırıb.**



ABŞ-ın Azərbaycandakı səfirliyindən verilən məlumata görə, Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Administratorunun müavini Bonni Qlik, ABŞ-ın Dövlət Departamentinin Katibinin müavini Stiven Biequn və ABŞ Prezidentinin məsləhətçisi İvanka Tramp birgə bəyanatla çıxış edərək bildiriblər ki, Prezident Tramp tərəfindən 2019-cu ilin fevralında təsis edilən və Ağ Ev-in rəhbərliyi ilə həyata keçirilən "Qadınların Qlobal İnkişafı və Rifahı Naminə" Təşəbbüsü (W-GDP) çərçivəsində yeni fəaliyyətlər və tərəfdaşlıqlar üçün 122 milyon dollar ayrılıb.

W-GDP fondundan ayrılmış 2 million ABŞ dolları dəyərində vəsait, Azərbaycanda fəaliyyət göstərən USAID təşkilatına qadınlar tərəfindən idarə olunan və qadınlara yönəlmiş biznes və peşakar assosiasiaların imkanlarının artırılmasına yardım edəcək. Sözügedən platformalar biznes sahəsində çalışan qadınlara öz sözlərini deməyə habelə onlara təlim, resurslar və bazarlara kollektiv çıxşı əldə etməyə yardım edəcək . W-GDP fondu sahibkar qadınlara bazarlara, maliyyə mənbələrinə və şəbəkələrə, təlim və digər resursları əldə etməyə imkan yaradır. Qadındar əldə etdikləri bu bacarıqlar sayəsində yeni biznesə başlamaq və onun inkişafı ilə bağlı çətinliklərin aradan qaldırılmaq imkanını əldə edəcək.

Prezidentin Məsləhətçisi İvanka Tramp bildirib: "W-GDP fondu qadınların iqtisadi zənginliyinin artmasına xidmət edən proqramların maliyyələndirilməsi və inkişafı üçün yaradılmışdır. Biz ABŞ hökumətinin və özəl sektorun resurs və təcrübəsindən istifadə edərək ,fəaliyyətlərin həyata keçirildiyi icmalarda davamlı və dərin səmərə verməsini təmin edirik".

Bu il Azərbaycan dünyanın 60-dan çox dövlətinə qatılaraq W-GDP təşəbbüsünün irəliləməsinə təkan verib. W-GDP təşəbbüsü qadınlara, həm iqtisadiyyatda iştirak, həm də rifahın və milli təhlükəsizliyin irəliləməsi sahəsində imkanları artırır. İqtisadi baxımdan zəngin imkanlara malik qadınlar öz ailə və icmalarına yenidən sərmayyələr yatıraraq, qlobal sülh və sabitliyə təkan verən iqtisadi artıma töhfə verirlər.

**2019-cu ilin fevralında Ağ Ev qadınların iqtisadı imkanlarını gücləndirməsinə xidmət edən və Birləşmiş Ştaların hökuməti tərəfindən tam həyata keçirilən ilk layihəsini, Qadınların Qlobal İnkişafı və Rifahı Naminə (W-GDP) Təşəbbüsünü təsis edib. Qadınların iş yerlərində inkişafı, sahibkar qadınların rifahının artması, və qadınların iqtisadiyyatda rolunun güclənməsi kimi üç əsas istiqamətə yönəlmiş W-GDP Təşəbbüsünün məqsədi 2025-ci ildə inkişaf edən dövlətlərdə yaşayan 50 million qadını əhatə etməkdən ibarətdir. W-GDP təşəbbüsü yeni innovasiya fonduna təkan verərək sözügedən üç istiqamətə yönəlmiş özəl-ictimai tərəfdaşlığı inkişaf etdirir. Keçirildiyi ilk ildə W-GDP Təşəbbüsü dünyanın müxtəlif dövlətlərində yaşayan 12 million qadını əhatə edib.**

# Eldar Həsənov apellyasiya şikayəti verdi

**Həbsdə olan sabiq səfir Eldar Həsənov apellyasiya şikayəti verib.**

Bu barədə APA-ya E.Həsənovun vəkili Adil İsmayılov bildirib.

Vəkilin sözlərinə görə, Səbail rayon Məhkəməsinin qərarından verilən apellyasiya şikayətinə Bakı Apellyasiya Məhkəməsində baxılacaq.

Qeyd edək ki, E.Həsənov Dövlət Təhlükəsizliyi (DTX) tərəfindən saxlanılıb.

DTX-nin yaydığı məlumata görə, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin bəzi vəzifəli şəxslərinin öz səlahiyyətlərindən sui-istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran əməllərə yol verməlri ilə bağlı başlanılmış cinayət işi üzrə



Xarici İşlər Nazirliyinin İşlər idarəsinin müdiri, Nazirliyin Tender Komissiyasının sədri Fərhad Mollazadə, Konsulluq idarəsinin rəisi Faiq Bağırov və digərləri vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, rüşvət alma faktlarına görə cinayət məsuliyyətinə cəlb edilərək barələrində məhkəmənin qərarları əsasında həbs qətimkan tədbiri seçilib.

Davam edən cinayət işi üzrə həyata keçirilən istintaq-əməliyyat tədbirləri zamanı Xarici İşlər Nazirliyinin fəaliyyət istiqamətləri üzrə ayrılan dövlət büdcə vəsaitlərinin mənimsənilməsi ilə bağlı yeni məlumatlar əldə olunub, toplanmış materiallar əsasında müvafiq qərarla kompleks maliyyə-təsərrüfat fəaliyyəti üzrə yoxlama təyin edilib. Maliyyə yoxlamaları zamanı Azərbaycan Respublikasının Serbiya Respublikasında, Monteneqroda, Bosniya və Herseqovinadakı səfiri Həsənov Eldar Hümbət oğlu tərəfindən xeyli miqdarda büdcə vəsaitinin təyinatı üzrə istifadə edilməməsi və digər qanun pozuntularının törədilməsinə dair əsaslı şübhələr müəyyən olunub. Aparılan istintaq çərçivəsində E.Həsənov şübhəli şəxs qismində tutulub.

Səbail Rayon Məhkəməsi tərəfindən E.Həsənov barəsində üçay müddətinə həbs qətimkan tədbiri seçilib.

**E.Həsənova qarşı Cinayət Məcəlləsinin 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə) və 308-1.1-ci (Dövlət büdcəsinin, məqsədli büdcə fondlarının və ya büdcədənkənar dövlət fondlarının vəsaitindən təyinatı üzrə istifadə etməmə) maddələri üzrə ittiham irəli sürülüb.**

# BELARUSDA VƏZİYYƏT UKRAYNADAN FƏRQLİDİ

**Ukrayna və Gürcüstandan fərqli olaraq Belarusda vəziyyət fərqlidi. Bu barədə Avropa komissarı Terri Breton məlumat verib. "Belarus Avropa ilə sərhəddə yerləşir. Bundan başqa Belarusun Rusiya ilə sıx əlaqələri var və bu ölkənin əhalisinin böyük əksəriyyəti Rusiya ilə sıx münasibətlərdə maraqlıdı"- deyə Avro komissar Europe-1 radjostansiyasına müsahibəsində bildirib.**

O, həmçinin qeyd edib ki, Avropa liderləri Belarusda yaşanan vəziyyətlə bağlı Rusiya prezidenti Vladimir Putinlə müzakirələr aparıb. Almaniyanın kansleri Anqela Merkel, Fransanın prezidenti Emanuel Makron və Avropa İttifaqının rəhbəri Şarl Mişel Rusiyanın dövlət başçısı ilə müzakirələrdə Belarusda vəziyyətin gərginləşməməsi üçün çıxış yolu tapılmasını istəyiblər. Breton həmçinin bildirib ki, Avropa İttifaqı Belarusda keçirilən prezident seçkilərinin nəticələrini tanımadığını elan edib. Çünki bu seçkilər xalqın iradəsini təmin etmir.



**Belarusda kütləvi etiraz aksiyaları 9 avqustda başlayıb. Aksiyaların ilk günləri ölkənin güc strukturları etirazçılara qarşı gözyaşardıcı qazdan, su şırnağından və işıqsaçan qumbaralardan istifadə edərək vətəndaşlara qarşı zor tətbiq ediblər. Rəsmi məlumatlara görə, aksiyalarla bağlı 6700 nəfər saxlanılıb. Etirazçılar və güc strukturları arasında yüzlərlə xəsarət alan var. Belarus Səhiyyə Nazirliyinin məlumatına görə, etiraz iştirakçılarından ikisi həlak olub.**

**Rustəm HACIYEV**

## Avtomobillərin texniki baxışı üçün Qaradağda yeni müayinə mərkəzi işə başlayıb



**Nəqliyyat vasitələrinin texniki baxışdan keçirilməsi üçün Bakı şəhərinin Qaradağ rayonu ərazisində yeni istifadəyə verilmiş müayinə mərkəzinin fəaliyyətə başlaması ilə əlaqədar DİN Baş DYP İdarəsi hüquqi və fiziki şəxslərə müraciət edib.**

DİN Baş DYP İdarəsindən Adalet.az-a verilən məlumata görə, idarə istifadəsində olan nəqliyyat vasitələrinin texniki baxışdan keçmə müddətinin bitməsi ilə bağlı SMS məlumat almış və ya qanunvericiliklə nəzərdə tutulmuş texniki baxış müddəti bitmiş avtomobil sürücülərinin və sahiblərinin diqqətinə çatdırır ki, Bakı, Sumqayıt və Abşeron rayonu ərazisində yaşayan sakinlər paytaxtın Sabunçu rayonu ərazisində yerləşən Texniki Müayinə Mərkəzi, Sumqayıt Regional qeydiyyat-imtahan və texniki baxış şöbəsi ilə yanaşı paytaxtın Qaradağ rayonunun Lökbatan dairəsindən Yeni Yasamal yaşayış massivinə gedən yolun 2-ci kilometrliyində (Sədərək Ticatət Mərkəzinin yanı) yeni istifadəyə verilmiş və müasir avadanlıq və ölçü cihazları ilə təchiz edilmiş Müayinə Mərkəzində də nəqliyyat vasitələrini texniki baxışa təqdim edə bilərlər.

**Sürücülüərin diqqətinə çatdırılır ki, respublika üzrə bütün texniki baxış məntəqələri istirahət və bayram günləri də daxil olmaqla hər gün saat 09:00-dan 18:00-dək fasiləsiz fəaliyyət göstərir. Texniki baxışa təqdim olunan nəqliyyat vasitələri "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununa 1 saylı Əlavə ilə müəyyən olunmuş tələblərə uyğun olmalıdır.**

## Çin Trampın korona ittihamlarına cavab verdi

**Çin Xarici İşlər Nazirliyi ABŞ Prezidenti Donald Trampın Pekinin koronavirus infeksiyasını yayması ilə bağlı ittihamlarına cavab verib.**



Rəsmi Pekin ölkəsinin virusla mübarizə istiqamətində görülən tədbirlər və görülən işlərin nəticələri barədə dəfələrlə və vaxtında məlumat yaydığını bildirib.

"Bu məlumatlar Çinin beynəlxalq sağlamlıq tələbləri ilə müəyyən edilmiş öhdəlik və vəzifələri vicdanla yerinə yetirdiyinin bariz nümunəsidir.

Çinin epidemiya ilə qlobal mübarizəyə verdiyi böyük fədakarlıqlar və əhəmiyyətli töhfələr hamıya bəllidir", - bildirilib.

Qeyd edək ki, bir müddət öncə Donald Tramp koronavirus pandemiyası ilə əlaqədar Pekinlə danışıqların dondurulduğunu elan edib.

## Latviyadan Batyaya jest



**Latviya hökuməti Svetlana Tixanovskayanı Belarus prezidenti olaraq tanımaqdan imtina edib.**

Bunu Latviya Xarici İşlər naziri Edqars Rinkeviçs deyib. O, Riqanın Tixanovskayanı prezident seçkisinin qalibi kimi görməyinin mümkünsüz olduğunu bildirib: "Heç kim səslərin real bölgüsünü deyə bilməz. Biz, əlbəttə, real nəticəni də bilmirik, çünki geniş saxtakarlıq müşahidə olunub".

**MEHRİBAN**

## *8 263 nəfər peşə təhsili pilləsində iştirak edərək elektron qeydiyyatdan keçib*



**8 263 nəfər 2020-2021-ci tədris ili üzrə peşə təhsili pilləsinə tələbə qəbulu prosesində iştirak edərək elektron qeydiyyatdan keçib. Onlardan 6061 nəfəri ixtisas seçimi edib.**

Adalet.az bildirir ki, peşə təhsili almaqda maraqlı olan şəxslər 24 avqust tarixinədəkhttps://qebul.vet.edu.az/platforması üzərindən ödənişsiz qaydada qeydiyyatdan keçməklə yanaşı, ixtisas seçimini də yekunlaşdırmalıdırlar.

Peşə təhsili pilləsi üzrə müraciət ünvanlayan şəxs müvafiq ixtisasları seçdikdən və təsdiq etdikdən sonra şəxsi kabinetinə daxil olaraq müraciətinin statusunu izləyə bilər. Qeyd edək ki, buraxılış imtahanında iştirak etməyən şagirdlər də ümumi təhsil müəssisələri tərəfindən şagirdin bitirdiyi tədris ili, təhsil bazası və fənlər üzrə illik qiymətləri qeyd olunan arayış əsasında peşə təhsili pilləsinə qəbul prosesində iştirak edə bilər.

Müraciətçinin qeydiyyat prosesi ilə bağlı çətinliyi yaranarsa, şəxsi kabinetində yer alan "təlimat"la, həmçinin "videotəlimat"la tanış olmalı və digər hallarda Peşə Təhsili üzrə Dövlət Agentliyinin qaynar xətti (012-599-12-77) və sosial media vasitələri üzərindən müraciət ünvanlaya bilər. İlk dəfə olaraq cari tədris ilində tələbə qəbulu prosesində işəgötürənlərlə birgə ikili proqramlar tətbiq olunacaq.

Peşə təhsili almaq istəyənlər arasında ən çox üstünlük verilən ixtisaslar, məhz işəgötürən müəssisələrlə birgə həyata keçirilən ikili proqramlardır.

2020-2021-ci tədris ili üzrə tələbə qəbulu 66 peşə təhsili müəssisəsində 120 ixtisas üzrə aparılmaqdadır.

## *Son günlər koronavirusa yoluxmanın artmasının səbəbləri bunlar ola bilər*

**Son günlər Azərbaycanda koronavirusa yoluxma hallarında az da olsa artım müşahidə olunur.**

Məsələ ilə bağlı açıqlama verən Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov deyib ki, virusun artmasına bir neçə səbəb ola bilər.

O qeyd edib ki, virusun artmasının səbəblərindən biri virusun hələdə bizə məlum olmayan və tam bilinməyən xüsusiyyətləri ola bilər.

R.Mahmudovun sözlərinə görə, karantin rejiminin yumuşalması nəticəsində insanlar arasında təmasda artım və ya tövsiyə olunan qaydalara kütləvi olaraq riayət etməmək də virusun artmasının bir səbəbi sayıla bilər.

Deputat vurğulayıb ki, ötən 5 ay ərizində COVİD-19-un həm dünyada, həm ölkəmizdə yaratmış olduğu reallıqlar bizə çox şey öyrətdi:

"Ötən dövr ərzində COVİD-19-un xüsusiyyətləri və təhlükələri barədə çox şey öyrəndik.

Həmçinin ötən müddət ərzində biz üç mühüm məsələyə diqqət etməklə virusla çox rahat şəkildə mübarizə aparmağın mümkün olduğu öyrəndik.

Sosial məsafəni qorumaq, tibbi maska taxmaq və gigiyena qaydalarına əməl etmək kimi sadə üsullarla bu xəstəliyin yayılmasının qarşısını effektiv formada ala bilərik. Vətəndaşlarımızı bu sadə qaydalara əməl etməyə çağırıram".

## *Suriyada rus generalı öldürüldü*



**Suriyanın Deyr-az-Zora şəhəri yaxınlığında humanitar aksiya həyata keçirən rus hərbiçilərinin olduğu nəqliyyat vasitəsi əldəaqayırma qurğunun partlaması nəticəsində qəzaya uğrayıb. Rus generalı, baş hərbi məsləhətçi Vyaçeslav Qladkix və iki hərbiçi ağır yaralanaraq hərbi hospitala aparılıb. General aldığı ağır xəsarətdən dünyasını dəyişib.**

RİA Novostinin məlumatına görə, İstintaq Komitəsində generalın ölümü ilə bağlı cinayət işi başlayıb. Bildirilir ki, hazırda Suriyada olan istintaq qrupu cinayət qəsdinin bütün detallarını araşdırır. Cinayətkarların tapılıb cəzalandırılması təkcə xidməti vəzifə deyil, həm də nüfuz məsələsidi. İstintaq komitəsinin rəhbəri Aleksandr Bastrıkin qeyd edib ki, istintaq qrupu bütün imkanlarından istifadə edərək rus hərbiçilərinə qarşı törədilən cinayət əməlin yezliklə açılacağına ümid edir.

**Rüstəm Hacıyev**

# ZAQATALA: YAŞANAN YARIM İLİN REALLIQLARI

**(əvvəli ötən sayımızda)**

**2020-ci ilin birinci yarısında rayonda bütün maliyyə mənbələri hesabına 8,2 milyon manat həcmində tikinti, abadlıq və quruculuq işləri görülmüşdür.**

Yarım il ərzində rayonda "Aqrarco" MMC tərəfindən Aşağı Tala kəndi ərazisində yeni fındıq emalı zavodunun, şəhərin Azərbaycan prospekti 97a saylı ünvanda 5 mərtəbəli çoxmənzilli yaşayış binasının tikintisi davam etdirilmiş, "Azərbaycan Respublikası regionlarının 2019-2023-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası olaraq Zaqatala şəhərinin şimal-qərb yaşayış massivində Xalça evinin tikintisi ilə əlaqədar müvafiq torpaq sahəsi seçilərək yerquruluşu kadastr planı hazırlanmışdır.

Hazırda torpaqayırma və layihələndirmə işləri davam etdirilir.

Rayonda ümumi sahəsi 3802.0 kvm olan 28 ədəd fərdi yaşayış evi tikilərək istifadəyə verilmiş, sahibkarlar tərəfindən rayonda 3.5 milyon manat həcmində yeni ticarət, xidmət, turizm və istirahət obyektlərinin, yüksək mərtəbəli yaşayış binalarının tikintisi aparılmış, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin xətti ilə zəlzələ nəticəsində Zaqatala şəhərində, Zəyəm, Aşağı Tala, Qımır, Yuxarı Tala, Çobankol, Sumaylı və Muxax kəndlərində qəzalı vəziyyətdə olan 12 fərdi yaşayış evinin tikintisi aparılmışdır.



### *Bakı-Qəbələ-Balakən avtomobil yolunun*

***378-ci kilometrində Zaqatala şəhərinin Qazangül yaşayış sahəsi ərazisində ayrılmış 0.39 hektar torpaq sahəsində "Pit stop" istirahət məntəqəsinin tikintisinə və şəhər 13 saylı körpələr evi-uşaq bağçasında təmir işlərinə başlanılmışdır.***

2020-ci ilin ikinci rübü ərzində rayonda abadlıq-quruculuq işləri də davam etdirilmişdir.

Rayonun şəhər, qəsəbə və kənd yaşayış məntəqələrində qaz xətlərində təmir işləri davam etdirilmiş, müxtəlif diametrli borularla yeni qaz xətləri çəkilmişdir. Altı ay ərzində 12 qeyri-əhali və 153 yeni əhali abonenti qeydiyyata alınmış, 01 iyul 2020-ci il tarixə rayon üzrə əhali abonentlərin sayı 23262, qeyri əhali abonentlərin sayı 220 olmaqla ümumi abonent sayı 23482 təşkil etmişdir.

Keçən dövr ərzində rayonun yaşayış məntəqələrində enerji təminatı sahəsində "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti Zaqatala Elektrik Şəbəkəsi tərəfindən əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi məqsədilə 6.9 km uzunluğunda 10-kv-luq, 2.0 km uzunluğunda10-kv-luq, 7.3 km uzunluğunda 0,4 kv-luq hava xətləri əsaslı təmir olunmuşdur. 141 ədəd smart tipli və 170 ədəd yeni elektron tipli sayğac quraşdırılmış, Əliabad qəsəbəsində və Kebeloba kəndində həyətlərdən keçən 10-kv-luq hava xətlərində ümumilikdə 48 ədəd dayaq çıxarılaraq küçə boyu çəkilmiş, rayonun 10 kv-luq hava xətlərində 60 ədəd metal dayaq quraşdırılmışdır. Danaçı kəndinin 3.2 km uzunluğunda 0.4 kV-luq elektrik verilişi xətləri 50 ədəd metal dayaq basdırılmaqla SİP kabel xətləri ilə əvəz edilmişdir.

Eyni zamanda rayonun yaşayış məntəqələrində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması sahəsində də işlər davam etdirilmiş, yararsız vəziyyətdə olan su xətləri dəyişdirilmiş, su xətlərində sızmaların qarşısı alınmış, müxtəlif ərazilərdə yararsız hala düşmüş su boruları dəyişdirilərək yeniləri ilə əvəz edilmiş, Zəyəm kəndində 110 mm-lik boru ilə 1300 metr, Muxax kəndində isə 450 mm-lik boru ilə 360 metr üzunluğunda yeni su xətti çəkilmişdir.

### *Cari ilin hesabat dövründə*

***rayonda əhaliyə poçt və rabitə xidmətlərinin yaxşılaşdırılması sahəsində müvafiq işlər aparılmış, əhali, müəssisə və təşkilatlara göstərilən xidmətlərin keyfiyyəti yaxşılaşdırılmış, internet istifadəçilərin sayı 791 nəfər artaraq 01.07.2020-ci il tarixə 17241 nəfərə çatmış, telefon abunəçilərin sayı 109 nəfər artaraq 23702 nəfər olmuşdur.***

Hesabat dövründə rayonun ərazisində fəaliyyət göstərən ali, orta ixtisas peşə, ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrində təhsilin keyfiyyətinin yüksəldilməsi, pedoqoji kadrların effektiv və səmərəli fəaliyyətinin təmin edilməsi məqsədi ilə müəyyən işlər görülmüş, məktəblərdə açıq dərslər, bilik yarışları, müsabiqələr keçirilmiş, seminarlar təşkil olunmuş, valideynlərlə pedaqoji əməkdaşlığın gücləndirilməsi məqsədi ilə açıq qapı günləri keçirilmişdir. Rayonda koronovirus infeksiyasının (Covid-19) yayılmasının qarşısının alınması məqsədi ilə rayon qərargahının yaradılması haqqında RİHB-nın 19 mart 2020-ci il 50/1 nömrəli və bu infeksiyanın yarada biləcəyi təhlükəni aradan qaldırmaq məqsədilə tətbiq edilən digər sərəncamlarına əsasən 58 mobil qrup yaradılmış, rayonun ərazisində fəaliyyət göstərən bütün müəssisələrdə tibbi-profilaktik və dezinfeksiyaedici tədbirlərin davam etdirilməsi, əhali arasında koronavirus xəstəliyinin profilaktikası məqsədilə sanitariya maarifləndirmə işləri həyata keçirilir. Zaqatala rayon Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən cari ilin mart ayında Koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə küçə və meydanlarda, parklarda, 2 dəfə 67 təhsil, 2 dəfə 42 məktəbəqədər təhsil müəsisələrində, 6 dəfə 61 çoxmənzilli ictimai yaşayış binalarında, 68 idarə, müəssisələr və 39 sahibkarlıq obyektlərində, 30 poçt şöbələrində, 15 bank və bankomatlarda, 4 məsciddə, 6 körpü və yeraltı keçiddə olmaqla cəmi 746 ərazidə profilaktik dezinfeksiya və əksepidemik tədbirlər aparılmışdır.



Azərbaycan Respublikasının Prezidentinin "BİZ BİRLİKDƏ GÜCLÜYÜK" şüarına dəstək olaraq bu günədək rayonda 4000-dən çox aztəminatlı ailələrə, xəstə və ahıl insanlara ərzaq yardımları olunmuşdur.

### *Rayonda səhiyyənin inkişafı*

***sahəsində bir sıra tədbirlər həyata keçirilmiş, əhaliyə tibbi xidmət 2020-ci ilin Yanvar ayının 1 dən Zaqatala RMX PHŞ İcbari Tibbi Sığorta Agentliyində "Təbib"in tələblərinə uyğun olaraq təşkil olunmuşdur.***



Hazırda dünya Səhiyyəsinin "COVİD-19" pandemiyası ilə mübarizə apardığı bu dövrdə Zaqatala RMX PHŞ də Pandemiyaya qarşı gücləndirilmiş iş rejimində fəaliyyət göstərməklə həm profilaktik həm də müalicəvi yardımla məşğuldur. 23 Mart 2020-ci il tarixdən 01 iyul 2020-ci il tarixinədək rayonun ərazısində 3960 nəfərdən laborator müayinə materialı götürülmüş, 20 nəfər rayon sakinində "COVİD-19" virusuna yoluxma qeydə alınmışdır. Təcili olaraq Region üzrə karantin xəstəxanası olan Balakən Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilmiş həmin xəstələrdən 3-ü sağalmış, 17 nəfəri isə karantin rejimində müalicəyə cəlb olunmuşlar. Qeydə alınmış xəstələrin hər birinin yaşadığı ünvanda epidemioloji təhqiqat aparılmış, xəstə ilə təmasda olmuş şəxslər aşkar edilmiş, olanlardan RMX tərəfindən yaxma götürülmüş və Şəki Regional laboratoriyaya göndərilmişdir. Xəstələr və aşkar edilmiş təmaslar arasında "COVİD-19" infeksiyası, karantin qaydaları barədə sanitariya maarifi işləri aparılmışdır.

**Rayonda bütün sahələrdə şəffaflığın tam təmin olunması, neqativ halların aradan qaldırılması ilə bağlı ölkə başçısının verdiyi tapşırıq və tovsiyələr hər bir dövlət məmurunun, idarə, müəssisə və təşkilat rəhbərinin iş fəaliyyətinin əsasını təşkil edir.**



### *Şəffaflığın təmin edilməsi*

məqsədilə büdcə təşkilatları tərəfindən malların alınması, iş və xidmətlərin görülməsi, əməliyyatların aparılması "Dövlət Satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələn vəzifələrə uyğun həyata keçirilmiş, mal alışı, iş və xidmətlərin görülməsi zamanı tender və kotirovka sorğularının komissiyalar tərəfindən həyata keçirilməsinə xüsusi diqqət yetirilmişdir.

**Dövlət qulluqçularının iştirakı ilə keçirilən tədbirlərdə dövlət quluqçuları üçün etik davranış qaydaları və prinsipləri, onlara əməl edilməsi ilə bağlı hüquqi mexanizimlər, etik davranış qaydalarının mahiyyəti, vicdanlı davranış, korrupsiyanın qarşısının alınması, hədiyyə alma ilə əlaqədar məhdudiyyətlər, maraqların toqquşmasının qarşısının alınması, qərəzsizlik prinsipinə əməl edilməsi mövzuları ətrafında geniş məlumatlar verilmişdir.**

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən rayona 420 müvəqqəti iş yeri ayrılmış, hal-hazırda 402 nəfər müvəqqəti iş yerində çalışır.

Rayon icra hakimiyyəti başçısının 14 aprel 2019-cu il tarixli 59N-li Sərəncamı ilə yaradılan komissiya tətəfindən bu sahədə vaxtaşırı monitorinqlər keçirilmiş, yol verilmiş nöqsanlar aradan qaldırılmışdır.

Belə ki, rayon icra hakimiyyəti başçısının Mamrux inzibati ərazi üzrə nümayəndəliyində 4, Yuxarı Tala inzibati ərazi üzrə nümayəndəliyi üzrə 3, Zəyəm inzibati ərazi nümayəndəliyi üzrə 2 halda RİHB-nın ərazi nümayəndəsi ilə qohumluq münasibətində olan ictimai işlərdə çalışan işçilər aşkar edilmişdir.

Həmin işçilərin ailələrinin maddi vəziyyətinin çətin, sosial müdafiəyə ehtiyaclarının olmasını və mütamadi olaraq işə çıxmalarını nəzərə alaraq yuxarıda adları qeyd olunan inzibati ərazi dairələri üzrə nümayəndələrinə rayon icra hakimiyyəti başçının sərəncamı ilə töhmət verilmişdir.

RİH başçısının şəhər, qəsəbə və kənd inzibati ərazi dairələriləri üzrə nümayəndələrinin iştirakı ilə karantin qaydalarına riayət olunaraq tədbir keçirilmiş və yol verilmiş nöqsanlar müzakirə olunmuş, aidiyyəti vəzifəli şəxslərə bir daha ciddi tapşırıqlar verilmişdir.

### *Zaqatala RPŞ-nin əməkdaşları*

**2020-ci ilin 6 ayı ərzində ictimai asayişin mühafizəsi, təhlükəsizliyin təmin edilməsi, hüquqpozmalara və cinayətkarlığa qarşı mübarizə və axtarışda olan şəxslərin tutulması istiqamətində ardıcıl işlər görmüşlər. Hesabat dövründə 49 cinayət hadisəsi qeydə alınmış, onlardan 92,6 %-nın açılması təmin olunmuşdur.**

RİHB-sı yanında Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə komissiya tərəfindən 2019-2024-cü illər üçün Dövlət Proqramının icrası diqqət mərkəzində saxlanılmış, narkotik vasitələrin qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə sahəsində fəaliyyət göstərən aidiyyəti qurumların koordinasiyası təşkil edilmiş, antinarkotik təbliğata xüsusi önəm verilmiş, həyata keçirilən tədbirlər nəticəsində narkotiklərlə mübarizə sahəsində müsbət nəticələr əldə edilmiş, profilaktik tədbirlərin səmərəliliyi artırılmış, həmçinin ictimai maarifləndirmə işinin əhatəsi genişləndirilmişdir.

Rayon İcra Hakimiyyəti, rayonun hüquq-mühafizə orqanları ilə birlikdə rayonun idarə, müəsissə və təşkilatları, RİHB-nın inzibati ərazi dairələri üzrə nümayəndəlikləri və bələdiyyələrin bütün qüvvələrini Azərbaycan Respublikası Prezidentinin, eləcədə Nazirlər Kabineti yanında Operativ Qərərgahın pandemiya bəlasının qarşısının alınması üçün qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə səfərbər etmişdir.

Ölkə Prezidentinin bütün sahələrdə həyata keçirdiyi islahatlar, xalqın rifahına xidmət edən fərman və sərəncamları, imzaladığı qanunlar vətəndaşlar tərəfindən böyük rəğbətlə qarşılanmış, son nəticədə ölkənin inkişafına, xalqın güzaranının yaxşılaşmasına, cəmiyyətdə demokratik dəyərlərin daha da güclənməsinə yönəlmişdir.

**Cənab İlham Əliyevin Azərbaycan vətəndaşlarının təhlükəsizliyinə, rifah halının daim yaxşılaşmasına yönələn yorulmaz fəaliyyəti hər keçən ildə öz müsbət nəticələrini daha bariz şəkildə nümayiş etdirir və cənab Prezidentin dediyi kimi, ilin sonuna qədər nəzərdə tutulan bütün vəzifələr icra ediləcəkdir.**

**Məzahir ƏHMƏDZADƏ**

---

**PISA direktoru Andreas Schleicher Forumda çıxış edəcək.**

Azərbaycanda "Təhsildə Yeni Çağırışlar" Beynəlxalq Forumunun keçirilməsinə hazırlıqlar gedir. Forum bu il sentyabrın 1-də internet platformaları üzərindən online formada gerçəkləşəcək.

TAM Teaching Advancement Matrix-in (Tədrisdə Ali Matriks) təşkilatçılığı və Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında İctimai Şuranın dəstəyi ilə təcrübə, aktuallıq və mübadilə başlıqları altında keçiriləcək forumun əsas hədəfi yeni dövrün təhsil tələbləri və təhsildə keyfiyyətin yüksəldilməsi ehtiyaclarının müzakirəsidir.




# AZƏRBAYCANDA BEYNƏLXALQ TƏHSİL FORUMU KEÇİRİLƏCƏK

Məlumdur ki, COVID-19 epidemiyası nəticəsində 193 ölkədə təhsil müəssisələrinin fəaliyyəti dayanıb. Bir çox ölkələr kimi, Azərbaycan da məsafədən təhsilə keçməyə məcbur olub. Odur ki, mövcud vəziyyəti təhlil etməyə, təhsildəki yeni çağırışları müzakirə etməyə ehtiyac yaranıb. Post-pandemiya dövründə təhsildə keyfiyyəti artırmaq üçün nələr etməliyik? Təhsilin keyfiyyətli olması üçün hansı imkanlar var? Təhsilin tərifində, təhsilverənlərin rolunda hansı dəyişikliklər yaranacaq? Təhsilverənlər hansı bacarıqlarını inkişaf etdirməlidir? Forum zamanı çıxışlar və müzakirələr vasitəsilə bu kimi sualların cavablandırılması nəzərdə tutulur.

Forumun əsas məruzəçisi (keynote speaker) PİSA-nın (Program for International Student Assessment - Şagird nailiyyətlərinin beynəlxalq qiymətləndirilməsi proqramı) direktoru Andreas Schleicher olacaq.

Qeyd edək ki, Azərbaycan 2006-cı ildən həmin proqramın iştirakçısıdır.

Bundan başqa Forumda Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri Prof. Dr. Şahlar Əsgərov, The Global Prize 2018 müsabiqəsinin qalibi Andria Zafirakou, Britaniya Təhsildə Liderlik, İdarəetmə və İnzibatçılıq Cəmiyyətinin (BELMAS - The British Educational Leadership, Management and Administration Society) rəhbəri, Honkonqdakı ESF Sha Tin Junior məktəbinin direktoru Rehana Shanks, UNICEF Azərbaycanın Təhsil proqramlarının rəhbəri Leyla Həsənova, Azərbaycan Respublikası Milli Məclisinin Elm və təhsil komitəsinin üzvü, millət vəkili Ceyhun Məmmədov, Şimali Kipr Türk Cümhiriyyətinin ikinci prezidenti və sabiq təhsil naziri Mehmet Ali Talat, xalq yazıçısı Çingiz Abdullayev, Doğu Akdeniz Universitetinin doktorantı, beynəlxalq təlimçi Arzu Soltan, Türkiyənin Yenilikçi Öğrenme Məktəblər Şəbəkəsinin yaradıcısı Kayhan Karlı, Forumun Təşkilat Komitəsinin sədri, TAM-ın baş direktoru Cəfər Mənsimi çıxış edəcəklər.

Forumun moderatorları Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tədris işləri üzrəprorektoru Dos. Dr. Eldar Aslanov və təhsilin idarə olunması üzrə mütəxəssis Salih Sarpten olacaq.

Forum günü TAM-ın təsis etdiyi yeni eyniadlı təhsil jurnalı da təqdim ediləcək. Əsas məqsəd bütün öyrənmə proseslərinin maraqlı, yaradıcı, yeni tərəflərindən söz açıb onları təbliğ etmək, təhsil sahəsində hiss olunan boşluqları tamamlamaqdır.

Forumun informasiya dəstəkçisi Təhsil Forumu-2020 və Təhsil Dünyası/Education World/Mir Obrazovaniə Facebook qrupları, Təhsil İdarəçiləri Assosiasiyasıdır. TAM komandası pandemiya şəraitini nəzərə alaraq Beynəlxalq Forumda iştirakın ödənişsiz olmasına qərar verib. Yalnız TAM-ın facebook (https://www.facebook.com/tammatrix) və ya instagram (https://www.instagram.com/tammatrix/) səhifəsini bəyənən və özü ilə foruma bir nəfər dəvət edən iştirakçıların iştirakçıların müraciəti təsdiqlənəcək və onlara iştirak linki göndəriləcək. Arzu edən iştirakçılara beynəlxalq sertifikat veriləcək.

Qeydiyyat üçün: https://forms.gle/ybauseUKHPvMdDGc7

**Arayış: "Özünü TAM-amla" şüarı ilə yola çıxan TAM Teaching Advancament Matrix-in əsas məqsədi müəllim peşəkarlığını yüksəltmək, müəllimlərin şəxsi və pedaqoji inkişafını dəstəkləmək, yerli və beynəlxalq təhsil işçilərinin əməkdaşlıq və təcrübə mübadiləsini təşkil etmək, müəllimlərin özlərini inkişaf etdirməsinə şərait yaratmaq, təhsildə kreativ yanaşmaları artırmaqdır.**

---

# İsmayıllıda növbəti qanvermə aksiyası keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiq etdiyi "Hemofiliya və talassemiyadan əziyyət çəkən uşaqlara qayğı" Dövlət Proqramı, həmçinin Heydər Əliyev Fondunun "Talassemiyasız həyat naminə" proqramına dəstək olmaq üçün İsmayıllıda növbəti qanvermə aksiyası keçirilib.**

Rayon İcra Hakimiyyətindən Adalet.az-a verilən məlumata görə, "Qan ver! həyat qurtar!" şüarı ilə keçirilən aksiyanın məqsədi "COVID-19" pandemiyası səbəbindən tətbiq olunan karantin rejimi dövründə qan çatışmazlığı xəstəliklərindən əziyyət çəkənlərə kömək etməkdir.

Tədbir İsmayıllı Rayon İcra Hakimiyyətinin, Milli Hematologiya və Transfuziologiya Mərkəzi Qan Bankının və Rayon Mərkəzi Xəstəxanası Publik Hüquqi Şəxsin birgə təşkilatçılığı ilə baş tutub. Kampaniyaya qoşulanlar əvvəlcə müayinədən keçirilib. Bütün işlər karantin qaydalarına riayət olunmaqla icra olunub və uğurla başa çatıb.



Aksiyada risk qrupuna daxil olmayan rayon sakinləri, könüllülər, icra hakimiyyəti, təhsil, mədəniyyət, idman və digər sahələri əhatə edən dövlət qurumlarının əməkdaşları iştirak edib. Xeyirxah təşəbbüsdə iştirak etmək üçün 200 nəfərdən çox qeydiyyat olub.

İştirakçılarda motivasiya yaratmaq, onları ruhlandırmaq üçün rayon rəssamları tərəfindən qanvermə prosesi rəsm əsərləri ilə əbədiləşdirilib.

Xatırladaq ki, eyni adlı aksiya son dəfə cari ilin 13 may tarixində də keçirilib.

**Sübhan**

---

# Bakıda kafe və restoranlarda yoxlamalar aparılır

**Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən avqustun 18-dən etibarən Bakı şəhəri də daxil olmaqla 7 şəhər və 6 rayonda ictimai iaşə obyektlərində, eləcə də restoran, kafe, çay evləri və bu kimi digər məkanlarda müştərilərə açıq hava şəraitində xidmət göstərilməsinə icazə verilir. Qərara uyğun olaraq müştərilərə açıq hava sahəsində yerində xidmət saat 09:00-dan 22:00-dək (qəlyan avadanlıqlarından istifadə və hər bir masa arxasında 6 nəfərdən artıq toplaşmaq istisna olmaqla) həyata keçiriləcək.**

Adalet.az-ın məlumatına görə, bu obyektlərin qeyd edilən qərara uyğun şəkildə fəaliyyətinin yoxlanılması məqsədi ilə Bakı Şəhər və paytaxt rayonlarının İcra Hakimiyyətləri, İqtisadiyyat Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi və Bakı Şəhər Baş Polis İdarəsinin məsul əməkdaşları tərəfindən birgə reydlərə başlanılıb.

Reydlər zamanı Koronavirus (COVID-19) pandemiyası dövründə açıq havada fəaliyyət göstərən ictimai iaşə müəssisələrində virusa yoluxma hallarının qarşısının alınması məqsədilə həmin müəssisədə təmizlik və dezinfeksiya işlərinin dövriliyinə, tətbiqinə icazə verilən dezinfeksiyaedici maddələrdən düzgün istifadə qaydalarına riayət edilməsi məsələləri araşdırılıb, xidmət və ictimai iaşə sektorlarında müştərilərin qəbulu, xidmətin sanitar-epidemioloji normalara uyğun qurulması və insanlar arasında sosial məsafənin qorunması məqsədilə kafe və restoranlarda xidmət personalı ilə söhbətlər aparılıb.

Reydlər zamanı açıq havada fəaliyyət göstərən əksər iaşə obyektlərində Operativ Qərargahın qərarlarına uyğun şəraitin yaradılması, burada qaydalara düzgün riayət edilməsi müəyyən edilmişdir.

Aşkar edilən nöqsanlar yerində aradan qaldırılıb və mövcud qayda və tələblərlə bağlı sahibkarlıq subyektlərinin və onların vəzifəli şəxsləri zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji normalarla bağlı məlumatlandırılıb.

**Paytaxtda ictimai iaşə sektorunda açıq hava sahələrində müştərilərə xidmətlərin həyata keçirilməsi zamanı epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin qaydalarının tələblərinə ciddi əməl olunmasına nəzarət və birgə reydlər davam etdiriləcək.**

# KİMİ ALDADIRSIZ?

## Bakı Nəqliyyat Agentliyi sərnişin sıxlığını aradan qaldıra bilmir, ona görə də vəziyyət bir qədər də ağırlaşır

**Kim nə deyir desin, nə vaxta qədər ki, Bakı şəhərində avtobuslarda ayaq qoymağa yer tapılmayacaq, basabas olacaq, o vaxta qədər də koronavirusa yoluxma halları daha da artacaq. Ən azından ona görə ki, bu cür basabaslarda nəinki ara məsafəsi saxlamaq mümkün olur, sərnişinlər bir-birinin "ağzının içinə" girirlər. Deyin görək, bax, belə bir şəraitdə və belə bir mühitdə koronavirusa yoluxmamaq olarmı?**

Mən düşünürəm ki, ictimai nəqliyyatdan istifadə edən və ən azı gündə iki dəfə işə gedib-gələn insanlar bu koronavirusa hər an tutula bilərlər. Təəssüf ki, bu məsələlər nə hökuməti narahat eləyir, nə də digər qurumları. Hər bir qurum sadəcə olaraq, gözdən pərdə asmaq üçün camaata nağıl danışır və bu nağıl da başa çatmır, göydən də üç alma düşmür. Nəticədə isə Bakı şəhərində virusa yoluxma halları üçün daha münbit şərait yaranır.

### *Bir qayda olaraq*

***mən hər səhər Yeni Günəşlidən metronun "Xalqlar dostluğu" stansiyasına qədər 50 nömrəli marşrutla gəlirəm. İnsaf naminə deyək ki, 50 nömrəli avtobuslarda şəhərdəki kimi basabas olmur. Ən yaxşı halda 2-3 sərnişin ayaqüstə dayana bilər. Burda da bir narahatedici fakt ondan ibarətdir ki, "BakBus"dakı kimi hamı maskadan istifadə eləmir. Bax, bunun özü də hardasa bir təhlükədir.***

Metronun "Xalqlar dostluğu" stansiyasına çatandan sonra əsl həngamə və müsibət başlayır. O həngamə və müsibət ki, bu anları hər gün "BakBus"un avtobuslarına minənlər yaşayırlar - əsəbləşirlər, qışqırırlar, etiraz eləyirlər, səslərini isə eşidənlər tapılmır ki, tapılmır! Avqustun 19-da səhər saat 8:45 dəqiqədə yenə metronun "Xalqlar dostluğu" stansiyasınının yaxınlığındakı dayanacaqda "BakBus"un avtobuslarını gözləyənlər çox idi.

Təbii ki, mən də dayanacağa gəlib növbəti avtobusu gözlədim. Biri gəldi, həddindən çox basabas idi. Minmədim.

### *Avtobus tərpənmək istəyəndə*

nəzarətçilər avtobusu dayandırdı. Ki, sərnişinlərdən biri maska taxmayıb. Çünki hansı sərnişin maska taxmırsa, avtobus yerindən tərpənmir. Ta o vaxt avtobus hərəkətə gəlir ki, sərnişin maskanı taxır. Nəzarətçilərdən biri orta qapıdan keçib maska taxmayan qadına maska verdi. O qadın isə maskanı ağzına tutdu, avtobus tərpənəndən sonra çantaya qoydu. Nəzarətçi də elə bildi ki, sərnişin maskanı taxıb. Mən qadının maska taxmamağını və avtobus tərpənəndən sonra çantaya qoymasını nəzarətçinin diqqətinə çatdıranda, o dedi ki, biz öz vəzifə borcumuzu yerinə yetirdik. Tay həmin xanım avtobusda maskanı taxmırsa, bu onun öz vicdanından asılıdı. Maska taxsa virusa yoluxma halı ya olmayacaq, ya da az olacaq. Hər bir insan gərək özü-özünə nəzarətçi olsun.

Növbəti bir ekspres avtobusu - M-2 gəldi. Dayanan kimi hamı avtobusa sarı qaçdı. Mən də birtəhər avtobusa yaxınlaşdım. Elə qapı açılan kimi birinci salona daxil oldum. Çox basabas idi. Mənim arxamca isə çoxlu sayda qadınlar və qızlar gəldi. Yer tapmaq çətin idi. Sürücü isə tez-tez deyirdi ki, keçin arxa tərəfə! Arxa tərəfdə də boş yer yox idi. Sərnişinlərdən biri sürücünün bu hərəkətinə əsəbləşib dedi:

**- Ay rəhmətliyin oğlu, kamerada görmürsən ki, ortada və arxada yer yoxdu, hamı ayaqüstə birtəhər dayanıb?!**

Sürücüyə iradını bildirən bu sərnişindən sonra ayaqüstə dayanmış qadınlardan biri dilləndi:

**- Camaat bir-birinin üstünə minib ey, indi belə bir vəziyyətdə biz iki saata yaxın yol getməliyik. Məgər sizin ananız-bacınız yoxdu? Kişilər qadınların belinə çıxır, qadınlar da kişilərin! Adamın bir insafı olar! Bir ayağı üstündə durmağa güclə yer tapmışam. Ayağımın birini qaldırıb, o birini qoyuram! Sonra da işə çatanda ayağımın ağrısından dayana bilmirəm.**

Qadının səsinə salondakı digər sərnişinlər də səs verdilər:

**- Qadın düz deyir də, qoy gəlsin Bakı Nəqliyyat Agentliyinin vəzifəli şəxsləri, çox yox, bir dəfə bu basabasda getsin, görək necə gedirlər! Danışmağa nə var ey, əsas məsələ iş görməkdi?! Onlar danışanda ağızlarına çullu dovşan sığmır. Amma işə gələndə heç bir nəticə yoxdur. O qurumun rəhbərləri həm yuxarıları aldadırlar, həm də camaatı. Yuxarıları və camaatı aldatmaq lazım deyil ey! Hər şey olduğu kimi səsləndirilməlidir. Metronu açın, qoyun camaatın canı bu avtobuslardan xilas olsun! Niyə açmırsınız? Axı biz hər gün zülm çəkirik. Bu zülm nə vaxta qədər davam edəcək, bilmirik?!**



Camaatın dediklərində və söylədiklərində çox böyük həqiqət var. Çünki əgər metronun "Xalqlar dostluğu" stansiyasından "20 Yanvar"a qədər qatarla yarım saata, uzaqbaşı 40 dəqiqəyə getmək mümkündüsə, indi saat yarım, iki saat vaxt itirməlisən. Üstəlik də ayaqüstə getməlisən.

Hansı ki, əvvəlki karantin rejimində metro işləyəndə heç vaxt bu qədər basabas olmurdu. Qatarlar bir dəqiqədən bir, uzaqbaşı iki dəqiqədən bir gəlirdi. Vaqonlarda basabas olmurdu və ara məsafəsi də saxlanılırdı.

### *Başa düşmək olmur,*

Operativ Qərargah çox yerin fəaliyyətinə icazə verir, amma metroya hələ də icazə vermir. Bu da sərnişinlərin çox böyük narazılığı ilə nəticələnir. Çünki sərnişinləri də qınamalı deyil. Onlar hər gün işdən evə gedib-gəlməyə metro işləmədiyinə görə, yolda 3-4 saat vaxt itirirlər. Üstəlik də əsəb gərginliyi və stress!

Əlbəttə, metronun fəaliyyət göstərməməsi sərnişindaşımada bütün yükü avtobusların üzərinə qoyub. Və Bakıda mövcud avtobus sayı da imkan vermir ki, sərnişindaşımanı normal həyata keçirsin və problem yaranmasın. Karantin rejimi yumuşalmamışdan öncə "BakBus"un ekspres avtobusları ilə yanaşı, digər daşıyıcı şirkətlərin nəqliyyat vasitələri də xətlərə buraxılırdı. Yəni "BakBus"la yanaşı, ekspres xətdə daşıyıcı şirkətlərin avtobusları da yaxından köməklik göstərirdi. Və onda indiki kimi sərnişin sıxlığı yox idi. Karantin rejiminin yumuşalmasından sonra isə ekspres xəttə digər daşıyıcı şirkətlər avtobuslarını buraxmırlar. Təbii ki, bu da sərnişinlərin sayının artmasına baxmayaraq, daşınmada mövcud problemi həll eləmir. Bakı Nəqliyyat Agentliyi dəfələrlə bəyan edib ki, karantin rejimində ekspres xətlərə "BakBus"la yanaşı, digər daşıyıcı şirkətlər də avtobuslar buraxmalıdılar. Hansı daşıyıcı şirkət ki, bu tapşırıqlara və vəzifələrə əməl etməyəcək, onlar məsuliyyətə cəlb olunacaq və cəzalandırılacaqdı.

### *Reallıq isə bundan ibarətdir ki,*

bu gün "BakBus"dan savayı digər daşıyıcı şirkətlər ekspres xətlərə öz avtobuslarını buraxmır və nəticədə pandemiya dövründə böyük sapotaja, bürokratiyaya şərait yaradırlar. Təbii ki, bu şəraitin və problemin süni surətdə yaradılması Bakı Nəqliyyat Agentliyinin diqqətindən yayınmamalıdır. Ən azından ona görə ki, ekspres xətlərə avtobus buraxmayan daşıyıcı şirkətlər Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qanun və qərarları kobud surətdə pozurlar. Bu qanunların pozulması isə son nəticədə "BakBus"un ekspres avtobuslarında basabas yaranarkən sərnişinlərin koronavirusa yoluxma ehtimalını artırır, onların həyatı üçün təhlükə yaradır.

Biz hər gün gördüyümüz mənzərini və problemi Bakı Nəqliyyat Agentliyinin, eləcə də digər qurumların diqqətinə ona görə çatdırırıq ki, onlar real vəziyyəti görsünlər, bilsinlər və mövcud nöqsanları qısa zaman kəsiyində aradan qaldırsınlar. Onsuz da yumuşaldılmadan sonra koronavirusa yoluxanların sayı bir qədər artır. Bu isə o deməkdi ki, avtobuslarda, qapalı yerlərdə və eləcə də marketlərdə virusun yayılma ehtimalı daha da çoxalıb.

**Birmənalı olaraq, pandemiyaya qarşı mübarizə aparan bütün qurumlar hərəkətə gəlməli, virusun yayılmasına, münbit şəraitin aradan qaldırılmasına qarşı ciddi mübarizə aparılmalıdır. Əks təqdirdə, avtobuslarda və digər qapalı yerlərdə virusa yoluxma halları yüksələn xətlə sürətlə inkişaf edəcək.**

**Faiq QİSMƏTOĞLU**

## *Yeni növ virus aşkarlandı - 10 qat daha öldürücü*



**Koronavirusa yoluxanların sayı 22 milyonu keçdi. Elm adamları yeni növ koronavirus aşkarladılar. Bu virusa D614Gadı verilən yeni virusun indiki virusdan 10 qat daha yoluxucu olduğu açıqlandı.**

Mutasiyaya uğramış D614G dünyanın fərqli bölgələrində də aşkarlanıb. Bir restoranda koronavirusa yoluxan 45 insandan ən azı 3-də D614G virusu aşkarlanıb. Restoranın sahibi Hindistandan geri döndükdən sonra 14 günlük karantin qaydalarına əməl etmədiyinə görə başqalarına da yoluxdurdu. Eyni virus Filippindən qayıdan bir adamda da tapılıb.

ABŞ-ın yoluxucu xəstəliklər üzrə mütəxəssisi Dr. Antoni Fauci də yeni növ virusun yoluxma sürətindən narahat olduğunu bildirsə də, DST bu virusun öldürücü olduğuna dair sübutların olmadığını deyib.

**Eminquey**

## *Müəllimlərin İşə Qəbul imtahanlarında səhv sual olub*





**Məlum olduğu kimi hazırda Müəllimlərin İşə Qəbul(MİQ) imtahanları davam edir. İmtahanlar paytaxt ilə yanaşı pandemiya ilə əlaqədar olaraq 17 rayon və şəhərin müxtəlif mərkəzlərində keçirilir. Azərbaycan dili və ədəbiyyat ixtisasından imtahan verən Əlizadə Anar adalet.az-a verdiyi açıqlamada bildirib ki, imtahanda səhv sual olub.**

"Azərbaycan dili və Ədəbiyyat fənnindən iştirak etdim. Bakıda 220 nömrəli məktəb -liseydə imtahan verdim. Proses yaxşı keçdi. Bir məqamı nəzərə almasaq. Kondisionerlər çox köhnə olduğundan elə səs-küylə işləyirdi ki, hamının fikri dağılırdı. Nəzarət əla idi. Qarşılama, sanitar qaydalara çox düzgün əməl olunurdu. Balım 53 oldu. Sualların tərtibat qaydalarından razı qalmadım.Suallar qiymətləndirmə standartına tam uyğun deyildi. 20%-30%30%20% qanuna uyğunluğu pozulmuşdu. Konkret səriştəsiz hazırlanmışdı. Metodika sualları isə sadə, amma müstəqil bir kurs kitabından cümlə-cümlə düşmüşdü. Ədəbiyyatdan bir sualda səhvlik də var idi. Azərbaycan dilindən əməli yazıdan cəmi 3 sual salınmışdı."

Lamiyə Nurullayeva isə imtahanda əlcəklə bağlı problem yaşayıb. Ümumilikdə isə imtahan normal keçib.

"Masallı rayonunda, Azərbaycan dili və Ədəbiyyat ixtisası üzrə imtahan verdim. İmtahan prosesi şəffaf keçdi. İxtisas sualları dərsliyi əhatə etmişdi. Kurikulum sualları da Təhsil Nazirliyinin verdiyi çərçivədə düşmüşdü. Pandemiya ilə əlaqədar bir az çətinliklə üzləşdim. Əlcəyi geyinə bilmədim. Amma sağ olsunlar, çox yaxşı münasibət göstərdilər. Əlcəyimi də dəyişdilər və iştirak etdim. Bu imtahanda 55 bal yığdım."

**Emin Piri**

# *SEVİMLİ MÜƏLLİMİMİZ*



*Mustafa ÇƏMƏNLİ*

**Mən Əbdürrəhim bəy Haqverdiyevi ilk dəfə 1926-cı ildə, Bakı teatr texnikumunda görmüşəm. Ə.Haqverdiyev teatr texnikumunda bizə bədii qiraətdən dərs deyirdi. Lakin o, təkcə qiraətlə kifayətlənmir, eyni zamanda bizə səhnə sənətindən, aktyor yaradıcılığından, rus və Avropa teatrlarının qabaqcıl təcrübələrindən danışardı. O, Peterburqda oxuduğu zaman tanış olduğu Aleksandrinsk teatrının (indiki A.Puşkin adına akademik teatr) ən yaxşı yaradıcılıq xüsusiyyətləri və görkəmli aktyorların oyunları haqqında bizə həvəslə məlumat verərdi.**

Biz məşhur tragik Hüseyn Ərəblinskinin yalnız adını eşitmiş və şəkillərini görmüşdük. Onun sənətkarlığı barədə isə heç bir şey bilmirdik. Ərəblinskinin böyük sənətindən, onun yaradıcılıq xüsusiyyətlərindən bizə ilk məlumatı verən də Haqverdiyev olmuşdur. Ə.Haqverdiyev Ərəblinskinin Qacar rolundakı çıxışını təhlil edər, hətta o, yeri gəldikcə böyük aktyorun hərəkətlərini, onun mizanlarını da bizə göstərərdi.

Ə.Haqverdiyev öz nəcib xasiyyəti və qayğıkeşliyi ilə tələbələrin məhəbbətini qazanmışdı. Biz onu bir gün texnikumda görməyəndə darıxırdıq. Əbdürrəhim bəy səhhətindən şikayət etməz, hər cür yüngül xəstəliklərdən qorxmazdı.

Bir gün o, bərk xəstələndiyi üçün texnikuma gəlmədi. Bu, bizi çox narahat etdi. Tələbələr ikibir, üçbir müəllimi yoluxmağa getdilər. Mən də dərsdən sonra tələbə yoldaşımız Hüseyn Rəfi ilə birlikdə onlara getdim. O, bizi çox səmimi qarşıladı, xəstəliyinə baxmayaraq yerindən qalxıb oturdu, heç xəstə deyilmiş kimi şirin söhbət etdi və sonra dedi:

**- Yaxşı, indi mən sizə nə bağışlayım?**

Hüseyn Rəfi Əbdürrəhim bəyə daha yaxın olduğu üçün onun sualına cavab verərək dedi:

Müəllim, bizə ancaq sizin sağlığınız lazımdır.



**İSMAYIL DAĞISTANLI, Azərbaycan SSR xalq artisti**

Yox, mən bununla razılaşmıram, sağlıq öz yerində...

O, bu sözləri deyib yazı stolunun üstündəki kitabların arasından bir balaca kitab götürdü və onun içərisinə nə isə yazıb, Hüseyn Rəfiyə uzatdı:

Al, Hüseyn, bala, məndən sənə yadigar olsun!

Bu kitab ədibin "Bəxtsiz cavan" pyesi idi. Sonra o, mənə tərəf döndü və gülümsəyərək dedi:

Sənə də bir hədiyyə verəcəyəm.

O vaxt şairlər, ədiblər, aktyorlar arasında təxəllüs çox dəb idi. Əbdürrəhim bəy də bizim təxəllüs axtardığımızı eşitmişdi.

Hətta mənim seçmək istədiyim bir neçə adı da bilirdi. Ona görə də üzünü mənə tutaraq dedi:

**- İsmayıl! Mən sənə Dağıstanlı təxəllüsünü verirəm. Bu, həm sənin təbiətinə uyğundur, həm də sizin yerlər dağlıqdır. Sizin dağıstanlılarla köhnədən əlaqəniz vardır, onlarla qonşusunuz. Mənim də dağıstanlılardan xoşum gəlir.**

Müəllimin verdiyi bu hədiyyə mənim üçün çox qiymətli oldu. Mən onun verdiyi təxəllüsü ehtiramla qəbul etdim...

Ə.Haqverdiyev həmin illərdə "Sağsağan" adlı bir komediya üzərində işləyirdi. Bir gün o, mənə dedi:

**- Sən özün üçün gündəlik yazırsanmı? Bu, lazımdır. Hər adamın öz gündəliyi olmalıdır. Bu gündən etibarən gündəlik yazmağa başla, gələcəkdə sənə çox lazım olar.**

O, gündəliyin əhəmiyyətindən mənə çox danışdı, faktlar göstərdi. Hətta öz gündəliyindən 1897-ci ildə "Dağılan tifaq" tamaşasında Nəriman Nərimanovun Nəcəf bəy rolunu necə oynadığı barədə qeydlərini oxudu.

1930-cu ilin aprel ayında biz texnikumu bitirdik. Buraxılış tamaşamız Sabunçu klubunda oldu.

Tamaşadan sonra Ə.Haqverdiyev səhnənin arxasına gələrək bizi bir-bir qucaqlayıb təbrik etdi. Sevincdən gözləri yaşarmış halda üzünü bizə tutaraq dedi:

Sağ olun, övladlarım, afərin sizə, çox yaxşı keçdi.

**Ə.Haqverdiyevin dərs verib yetişdirdiyi tələbələrin çoxu indi Vətənimizin müxtəlif şəhərlərində - Bakıda, Daşkənddə, Yerevanda, Aşqabadda görkəmli aktyorlar olmuşdur. Onlar öz sevimli müəllimini həmişə xoş duyğularla xatırlayırlar. Ə.Haqverdiyevin xatirəsi bizim üçün həmişə əzizdir və əziz olaraq da qalacaqdır.**

**"Kommunist qəzeti, 20 dekabr 1960-cı il**

# BİR HEKAYƏNİN TALEYİ



*Asif Rüstəmli*

**C.Cabbarlının 90 illiyi ərəfəsində ədibin arxivinə tez-tez baş çəkirdim. Ziyarətlərimdən birində onun 8 vərəqdən ibarət ərəb qrafikalı əlyazmasına rast gəldim. İrihəcmli mətnə sərlövhə qoyulmasa da, səhifələrdən birində karandaşla çəpəki "Sifarişlə" sözü yazılmışdı. Maraq mənə üstün gəldi və bu sözdən çəkinməyərək mətni oxumağa başladım. Satirik ruhda yazılmış bir hekayə idi. Sonda tarix yazılmasa da, bir cümlədən məlum olurdu ki, 1930-cu ildə Azərbaycanda inqilabın (istilanın-A.R.) 10 illiyi ərəfəsində yazılıb. Hadisələr əsasən Bakının Şura və Böyük Səlyan küçələrində cərəyan edirdi. Əsərdə sosial-məişət şəraitinin dözülməzliyi, ictimai təşkilatların, təsərrüfat müəssisələrinin süründürməçiliyi, idarəetmə mexanizmində ciddi qüsurlar, milis, təcili yardım sistemində olan bürokratik əngəllər çox sərt tənqid edilmişdir. Müəllif çamura batmış bu küçələrin fonunda mövcud quruluşu, mühiti qılınclayırdı. Hətta əsərin qəhrəmanı Sancaq bəy (C.Cabbarlının gizli imzalarından biridir -A.R.) əsəbiləşərək deyir: "Keçmişlər kimi yaşamaq yaxşı olsa idi, onda bu Nikolayı yıxmağa, yeni bir inqilab düzəltməyə nə ehtiyac vardı?"**

Bu cümlə C.Cabbarlının sovet rejiminə, sosialist inqilabına ilk ən güclü etirazı idi

Əsərin qəhrəmanı yeni-yeni macəralara rast gəldikcə və lığa, çamura çevrilmiş küçələrdən keçdikcə əsas məqsədi papağını qorumaq olur.

Onu pencəyin qoltuq cibinə dürtsə də əsərin qəhrəmanı nəticədə papağını itirir

C.Cabbarlının dərin məzmuna və örtülü mənaya malik bu hekayəsinin başlığı olmasa da, onu "Papaq" adlandırdım.

Yığcam müqəddimə yazaraq dövrün ən populyar bir jurnalına təqdim etdim. Xeyli müddətdən sonra özlərini demokratik düşüncə daşıyıcıları adlandıranlar absurd bəhanələrlə yazını özümə qaytardılar və çapının mümkünsüzlüyünü bildirdilər. Doğrusu hekayənin ərəb qrafikasından transfoneliterasiya



olunmasına xeyli vaxt sərf etmişdim

Növbəti açdığım qapı "Ədəbiyyat və incəsənət" qəzetinin redaksiyası oldu.

Qəzetin baş redaktoru, xalq yazıçısı Sabir Əhmədli məni 1990-cı ilin o ağır, çətin günlərində "xoş gəldin"lə qarşıladı. Söhbətimiz maraqlı oldu. Dedim ki, Sabir müəllim, C.Cabbarlının 90 illiyinə ədibin 60 ildi çapdan kənarda qalmış bir əsərini gətirmişəm. Bu əsər demək olar ki, Sizinlə yaşıddır. İstərdim ki, bu hekayəni diqqətlə oxuyub fikrinizi bildirəsiniz. Bu əsərdə mən C.Cabbarlının milliliyini, cəsarətini, həqiqətsevərliyini görürəm.

Sabir müəllim mənim C.Cabbarlı ilə bağlı söhbətlərimi maraqla dinlədi, təəccüblə qarşıladı, mütləq oxuyacağını dedi və bildirdi ki, sevimli ədibimizin hər sətri bizim üçün əzizdir.

Bir neçə gündən sonra Sabir müəllimə zəng edib fikrini soruşmaq istəyəndə o hekayənin qəzetin ən yaxın nömrəsinə daxil edildiyini bildirdi.

**C.Cabbarlının "Papaq" hekayəsi yazıldığı tarixdən 60 il sonra, 60 yaşlı Sabir Əhmədlinin xeyirduası ilə "Ədəbiyyat və incəsənət" qəzetinin 7 dekabr 1990-cı il tarixli 48-ci sayında işıq üzü gördü. Qəzetin 1-ci səhifəsində "Cabbarlının tapılmış hekayəsi" adlı mənim ön sözüm verilmiş, hekayənin sonunda isə Sabir Əhmədli "Papaq" itməyib" adlı təəssüratını yazmışdır. Bu təəssürat 30 ildən sonra - bu gün də çox canlıdır və isti duyğularla cilalanıb. Xalq yazıçısı Sabir Əhmədlinin qanlı sovet rejimi dövründəki açıq, cəsarətli düşüncələri təqdirəlayiqdir və onun həmin yazısını həm də araşdırmalarım haqqında ilk dəyərləndirmə hesab edirəm.**

# AQTA təsərrüfatlarda monitorinqlər keçirib

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları "Azərbaycan Respublikasında 2020-ci il üçün epizootiya əleyhinə profilaktik və diaqnostik Tədbirlər Planı" üzrə ölkənin müxtəlif rayonlarında ümumilikdə 160 südçülük istiqamətli təsərrüfatlarda monitorinqlər keçirib. Bakı şəhəri, Abşeron, Xızı, Gəncə, Samux, Goranboy, Bərdə, Ağcabədi, Şəmkir, Tovuz və Ağstafa rayonlarındakı bəzi təsərrüfatlarda iri və xırdabuynuzlu heyvanlar arasında bruselyoz xəstəliyi aşkarlanıb. Xəstəliyin aşkarlandığı qeyri-sağlam təsərrüfatlarda təlimata uyğun olaraq sağlamlaşdırıcı tədbirlər həyata keçirilib.**

AQTA
AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

Yoxlamaların nəticəsi olaraq emal müəssisələrinə, ticarət şəbəkələrinə və ya süd dəyər zəncirinin digər seqmentlərinə daşınan xam südün ilkin istehsal sahəsindən (fermadan) pasterizasiya olunduqdan sonra çıxarılması, bu məqsədlə təsərrüfatların gündəlik istehsal gücünə uyğun pasterizasiya qurğusu ilə təmin edilməsi, süd və süd məhsullarının (pendir, qatıq, kəsmik və s.) kustar üsullarla qablaşdırılaraq pərakəndə şəkildə satışının qarşısının alınması istiqamətində inzibati və maarifləndirici tədbirlərin, damazlıq və yetişdirilmə məqsədilə satılan heyvanların satışına ancaq karantində saxlanılaraq bruselyoza görə laboratoriya müayinəsi aparıldıqdan sonra həyata keçirilməsi tapşırılıb. Hazırda ölkəmizdə, bruselyoz xəstəliyinə qarşı aparılan nəzarət tədbirləri çərçivəsində beynəlxalq qurumlar tərəfindən qəbul olunmuş prinsiplərə uyğun olaraq hər il respublika ərazisində xəstəliyin yayılmasının müəyyən olunması üçün seromonitorinqlər keçirilir, iri və xırdabuynuzlu heyvanlar arasında Ümumdünya Heyvan Sağlamlı Təşkilatının (OIE) təlimatlarına uyğun peyvəndləmələr aparılır. Aparılan bütün peyvəndləmə tədbirləri təlim keçmiş baytar həkimlər tərəfindən təlimata uyğun olaraq soyuq zəncir prinsipi gözlənilməklə həyata keçirilir.

# Füzulim mənim

## 22-23 avqust. O günləri xatırlayıram



Asif Quliyev

***30 ildən çox jurnalistlik fəaliyyəti ilə məşğul olan Asif Quliyev Ermənilərin Azərbaycana qarşı qaldırdıqları əsassız iddiaların ən ağır illərində (1989-1995) Azərbaycan KP MK-nın Təşkilat Partiya işi şöbəsində məsul təşkilatçı işləyərkən ermənilərlə sərhəd olan rayonların "kuratoru" kimi, Milli Məclisdə vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin müdiri kimi Ermənilərin Azərbaycanlılara qarşı yaratdıqları problemlərin həlli üçün daim ezamiyyələrdə olarkən Ermənilər tərəfindən dəfələrlə atəşə tutulsa da, erməni gülləsinə tuş gəlməmişdir. Ermənilərlə sərhəd rayonlarda yaranmış bir çox hadisələrin canlı şahidi olan jurnalist Asif Quliyev iştirakçısı olduğu bu hadisələr haqqında bir sıra məqalələr yazmışdır. O, bu dəfəki yazısında Füzuli şəhərinin işğalı zamanı canlı şahidi olduğu hadisələri qələmə almışdır.***

***Biz köçmədik, köçürtdülər.***
***Biz qaçmadıq, qaçırtdılar.***
***Biz ölmədik, öldürdülər.***
***Oda atıb diri-diri yandırdılar.***
***Diri-diri dərimizi də soydular.***
***Bildinizmi***
***Niyə köçdük?***
***Niyə qaçdıq?***
***Niyə öldük?...***
***Biz elindən-obasından ayrı düşmüş qaçqınlarıq.***
***Aman tanrı, aman gündü qaçqınları unutmayın.***
***Aman gündü ay insanlar, siz bizləri unutmayın.***

***Bir qaçqının məzar daşından***

Dünyada hər dərdin öz dərmanı var. Ananın övladına, övladın anasına ciyərinin parasını verib onu ölümdən qurtardığını çox görmüşəm, çox eşitmişəm. Birinin evi yanır yaxınları, qohumları yığışıb ona ev tikirlər. Bədbəxt hadisə baş verir, kim isə əzizlərini itirir, qohum-əqraba, qonum-qonşu "Bu dünyanın işi belədir, bir gün yaranan bir gün öləcək" deyə təsəlli verirlər. Amma torpağını itirənlərə, vətənində vətənsiz yaşayanlara təsəlli verməyə söz yoxdur, **o söz hələ tapılmayıb.**

Qürbətdə vətən həsrəti ilə yaşayanlara təskinlik üçün ancaq bir söz deyilir: "Allah səbr versin!". Vətənini, torpağını itirmiş biz Füzulilər də düz 27 ildir ki, səbr edə-edə gözləyirik... Gözləyirik ki, bir gün gələcək dünyanın o başsız başbilənləri ağı qaradan ayıracaq, haqq-ədalət naminə Erməni işğalçılarına **çəkilin!** deyəcək. Yada ki, səbri tükənmiş ordumuz Lələtəpəni azad etdiyi kimi Füzilini də, işğal olunmuş digər rayonlarımızın torpaqlarını da bircə gecənin içində düşmən tapdağından azad edəcəkdir. İnanıram ki, o gün uzaqda deyil. Möhtərəm Prezidentimizin dediyi kimi, xoşluqla olmasa qüdrətli ordumuzun gücü ilə Füzuli də, respublikamızın işğal olunmuş digər rayonlarının torpaqları da düşmən əsarətindən tezliklə azad olunacaqdır.

...O illərdə Füzuli bütün füzulilərin Füzulisi idi. Uşaqdan tutmuş böyüyə kimi hamı Füzuli dərdi ilə yaşayırdı. Füzulinin qorunması, əsir düşməməsi üçün hər kənddə yaxşı ya pis, bir müdafiə qərargahı təşkil olunmuşdu. Füzulinin ağsaqqalları, ziyalıları Bakıda "Quruçay" adlı bir cəmiyyət yaratmışdılar. Bu cəmiyyətin üzvlərinin hamısı nəinki malından, pulundan, hətta canlarından da keçməyə hazır olan vətən oğulları idi. Akademikdən tutmuş adi zavod fəhləsinə kimi hamı - şair də, yazıçı da, jurnalist də, nazir də, müəllim də, tələbə də, polis işçisi də, yaxın rayonlarda müəyyən vəzifə sahibi olan əksər füzulilər də bu təşkilatda birləşmişdilər.

Bu cəmiyyətin yaradılmasında və fəaliyyətində böyük xidmətləri olan vətən fədailərinin, el ağsaqqallarının hamısının adını kiçik bir məqalədə çəkmək mümkün olmadığına, daha doğrusu kimlərinsə adını unudacağımdan ehtiyat etdiyimə görə, Füzuli həsrəti ilə dünyasını dəyişənlərin də, o əhvalatlar barədə bu gün də tez-tez söhbətlər etdiyim, Füzuliyə qovuşmaq ümidi ilə yaşayanların da adlarını çəkmirəm. İstərdim ki, buna görə heç kim məndən inciməsin. Bir faktı xüsusi vurğulamaq istəyirəm ki, ancaq Füzuliyə kömək məqsədi ilə yaradılmış bu cəmiyyətə qoşulanların hamısı vətən fədailəri idi. Məhz bu cəmiyyətin təşkilatçılığı ilə bir vaxtlar əsgəri xidmətdə olmuş, hərbi rütbəsi olan neçə-neçə füzulili Bakıdakı isti ocağını, rahat işini atıb, körpələrini ana ümidinə qoyub, torpağını qorumaq üçün silaha sarınıb Füzuliyə, başı, ayağı görünməyən müharibəyə getdi. Getdi ki, canını qurban versə də kəndini, kəsəyini qorusun, düşmənə verməsin. O vaxt "Qurucay" Cəmiyyətinin çağrısı ilə cəbhəyə gedən neçə füzulili şəhid oldu, yaralandı, əlil oldu.Onların neçəsi ölkə prezidentinin fərmanı ilə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görüldü.

Vətən yolunda ölmək, vətənin azadlığı, torpaqların işğalçılardan azad olunması üçün qələbəyə gedən yolun başlanğıcıdır, bu yolun yol göstəricisidir. Bu yolda nə az, nə də ki çox, düz 1100 füzulili şəhid olub, 1450 nəfər əlil olub, 113 nəfər əsir düşüb, neçə füzulili itkin düşüb.

Qorxmaz insan cəsarətli olur, cəsarətli insan igid olur, igid insan qəhrəman olur. Bu müharibədə füzulilərin 6 oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Budur onlar: Vətən üçün, torpaq üçün canından keçən Azərbaycanın Milli qəhrəmanı adına layiq görülmüş füzulili gənclər.

**Seymur Qəhrəman oğlu Məmmədov.** 1971-ci il sentyabrın 8-də Füzuli şəhərində anadan olmuşdur. Hərbi xidməti Almaniyada və Ukraynada keçirən Seymur Azərbaycana qayıdandan sonra Füzulidəki özünümüdafiə batalyonuna qoşulmuşdur. Cəsarəti və igidliyi ilə elə ilk gündən çoxlarına nümunə göstərilən S.Məmmədov bir neçə kəndin, habelə əsir düşmüş bir neçə həmyerlisinin əsirlikdən azad edilməsində əsil qəhrəmanlıq göstərmişdir. S.Məmmədov 1992-ci il aprelin 1-də Məlikcan kəndi ətrafındakı döyüşlərdə hər birində 10 Erməni yaraqlısı olan 15 postu qumbara ilə partlatmış, özü də şəhid olmuşdur. Bakıda, şəhidlər xiyabanında dəfn olunmuşdur.

**Pəhlivan Əhliman oğlu Fərzəliyev.** 1958-ci il sentyabrın 27-də Qobu Dilağarda kəndində anadan olmuşdur. 1986-cı ildə Orenburq politexnik Universitetini bitmişdir. Vətənin çətin günlərində silaha sarınan Pəhlivanın komandiri olduğu tağım Xələfcə kəndi uğrunda gedən döyüşlərdə bir Erməni batalyonunu və düşmənin küllü miqdarda döyüş sursatını məhv etmişdir. 1992-ci il aprelin 11-də qəhrəmancasına həlak olmuşdur. Doğulduğu Qobu Dilağarda kəndində dəfn olunub.

**Faiq Qəzənfər oğlu Rəfiyev.** 1955-ci il fevralın 29-da Saracıq kəndində anadan olmuşdur. 1973-1975-ci illərdə hərbi xidmətdə olan Faiq 20 yanvar hadisələrindən sonra vətənə qayıdıb bir müddət Xocavənd rayonunda sahə müvəkkili işləmişdir. Olduqca qorxmaz və cəsarətli bir igid olan Faiq Axullu, Tuğ, Qaradağlı kəndlərində gedən döyüşlərdə əsil qəhrəmanlıq göstərmişdir. Düşmənin xeyli miqdarda canl qüvvəsini və hərbi sursatını məhv etmişdir. 1992-ci il yanvarın 10-da Koçbəy kəndinin Erməni quldurlarından təmizlənməsi zamanı qəhrəmancasına həlak olmuşdur. Doğulduğu Saracıq kəndində dəfn edilib.

**Elxan Qaçay oğlu Zülfüqarov.** 1954-cü il iyunun 29-da Füzuli şəhərində anadan olmuşdur. Hərbi xidmətdən sonra bir müddət Novosibirski şəhərində milis işçisi kimi çalışan Elxan Qarabağ hadisələri başlayanda Azərbaycana qayıdıb könüllü olaraq orduya gedir. Bacarıqlı kəşfiyyatçının məsləhətləri və köməyi ilə keçirilmiş əməliyyatlarda çoxlu Erməni qulduru məhv edilmişdir. 1994-cü il yanvarın 5-də Şükürbəyli kəndi uğrunda gedən döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv edən Elxan özü də elə həmin gün qəhrəmancasına həlak olmuşdur. Bakıda şəhidlər xiyabanında dəfn olunub.

**Bəşir Bəylər oğlu Kərimov.** 1976-cı il fevralın 2-də Füzuli rayonunda anadan olmuşdur. 1995-ci ilin mart hadisələrində Azərbaycan dövlətçiliyinin əleyhinə çıxan silahlı dəstələri zərərsizləşdirən zaman həlak olmuşdur. Azərbaycanın ən gənc Milli Qəhrəmanı olan B.Kərimov Bakıda şəhidlər xiyabanında dəfn olunub.

**Rasim Səxavət oğlu İbrahimov.** 1962-ci il aprelin 18-də Bakı şəhərində anadan olmuşdur. bir müddət C.Naxçıvanski adına Hərbi məktəbdə təhsil aldıqdan sonra Sovet qoşunlarının tərkibində Almaniyada hərbi xidmətdə olmuşdur. 1988-ci ildə Füzuli rayonunun cəsur oğulları ilə birlikdə özünümüdafiə batalyonu yaradan Rasim, elə həmin il Tuğ kəndi uğrunda gedən döyüşlərdə onlarla erməni yaraqlısını məhv edir. Cəsur komandir mühasirəyə düşmüş döyüş yoldaşlarını xilas edərkən özü mühasirəyə düşür. Ermənilərə qarşı uzun müddətli mübarizədən sonra əsir düşməmək üçün 1992-ci il iyunun 26-da özü öz qumbarası ilə özünü partladır. Bakıda şəhidlər xiyabanında dəfn olunub.

Kiçik bir məqalədə Milli qəhrəman adına layiq görülmüş, torpaq uğrunda şəhid olmuş füzulilərin bir neçəsinin adını çəkdim. Çox yaxşı ki, respublikamızın, eləcə də rayonumuzun tanınmış qələm sahibləri bu qəhrəmanların əksəriyyətinin igidlikləri haqqında olduqca maraqlı televiziya filmləri çəkmiş, sanballı oçerklər yazmış, kitablar çap etdirmişlər. Torpaq uğrunda canından keçmiş fədailər haqqında bu cür maraqlı yazıları oxuyan məktəblilər də, tələbələr də, ömrünün çoxunu yaşayan ağsaqqallar da vətən yolunda silaha sarınmağa hazır olduqlarını yazırlar.

Lələtəpə uğrunda gedən döyüşlərdə neçə Füzulili şəhid oldu. Onların hamısının vətən uğrundakı xidmətləri Möhtərəm Prezidentimiz tərəfindən layiqincə qiymətləndirildi.

O vaxt Lələtəpədə şəhid olmuş həmkəndlimiz Elnur Əliyev haqqında **"Əsir düşmüş Dədəlinin şəhid oğlu"** adlı bir məqalə yazıb qəzetdə dərc etdirdim. Komandiri olduğu əsgərləri qorumaq naminə özünü düşmən qumbarasının üstünə atan Elnurun digər keyfiyyətlərini də göstərdim. Az sonra oxuyuculardan, xüsusilə gənclərdən çoxlu məktublar aldım.

Səkkizinci sinifdə oxuyan 11 oğlan göndərdikləri məktubda yazırlar ki, "Biz hər gün dərs başlayanda Dövlət himnindən sonra Elnurun adını çəkir, ona rəhmət diləyirik. Hərbi xidmətə gedəndə vətənə Elnur kimi xidmət edəcəyimizə and içmişik..."

Sankt-Peterburqdakı Rusiya Prezidenti Yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Ülviyyə Qurbanova yazır ki, mən əslən Füzulinin Aybasanlı kəndindənəm. Valideynlərim erməni təcavüzü nəticəsində Füzulidən qaçıb Sankt-Peterburqa gəliblər. Mən bu şəhərdəki 180 saylı məktəbi qızıl medalla bitirib Akademiyaya qəbul olunmuşam. Lələtəpədəki qələbəmizi eşidəndə evimizdə neçə gün bayram elədik. Rəfiqələrim evimizə gəlib atama, anama göz aydınlığı verdilər. İstərdim ki, bu göz aydınlığı Füzuli azad olunanda verilsin. Mən Füzulini görməmişəm. Amma təsəvvürümdə Füzuli mənim üçün dünyanın ən gözəl şəhəridir, cənnətin bir guşəsidir. Lələtəpə uğrunda gedən döyüşlərdən sonra dəqiq inanıram ki, Lələtəpəni azad edənlər tezliklə Füzulini də azad edəcəklər. Onda tələbə yoldaşlarımı da götürüb ata yurdum, baba yurdum, doğma Füzuliyə gələcəm.

***

Mətləbdən uzaqlaşmamaq üçün onu deyim ki, "Qurucay" Cəmiyyətinin əsas məqsədi hər kəsin əlində olan imkandan istifadə etməklə Füzulini qorumaq, oradakı imkansızlara kömək etmək idi.

...Ermənilər Qacarı işğal edəndə Bakıdan bir neçə tanınmış ziyalı ilə Füzuliyə getdik. Axı, Qacar yaxşı qorunurdu niyə?... Dedilər ki, bir neçə gün öncə Qacarı qoruyan özünümüdafiə batalyonunun komandiri dəyişdirilib. Bir də onu dedilər ki, guya patron çatmayıb. Bakıya qayıdan kimi o vaxt Bakıdakı hərbi zavodların birində direktor işləyən rəhmətlik Tofiq Əzizovun *(sonralar o bir müddət Baş Nazirin müavini işlədi)* yanına getdim. Cəmi iki gündən sonra Abşeron rayonundakı Məmmədli südçülük savxozunun direktoru Əli Əliyevin verdiyi maşınla Füzuliyə küllü miqdarda patron göndərdik. Getdi, çatdı, amma necə oldu, sonu bilinmədi...

Cəbhəçilərin hakimiyyəti dövründə Bərdədə yük maşınlarının üzərinə kustar üsulla da olsa "qrad" silahı yığırdılar. Bu işlə məşğul olan nazirin yanına gedib Füzuli cəbhəsinə heç olmasa iki "qrad" göndərməsini xahiş etdim. Bir xeyli sakitcə dayanıb üzümə baxdı. Sanki bu işi kimdən eşitdiyimi öyrənmək istəyirdi. Sonra da: maşın göndərsinlər yığıb verərlər - dedi.

Əslən Horadiz kəndindən olan, o vaxtlar Göyçay rayonunun prokuroru işləyən, olduqca vətənpərvər və qayğıkeş bir insan olan Aydın Mahmudovla Bərdəyə getdik. Bu işlə bilavasitə məşğul olan adamı tapıb fikrimizi bidirdik. Cavabı qəribə oldu: Nazir deyib ki, onlara silah versəniz gəlib sizi yerinizdə ...

Bərdədə və o tərəflərdə böyük hörməti olan, hələ kolxozda adi işdə çalışdığı illərdən tanıdığım və ailəvi dostluq etdiyimiz Bərdə pambıqtəmizləmə zavodunun direktoru Aydın Əhmədov çətinliklə də olsa öz vəsaiti hesabına aldığı maşının üstünə "qrad" qurğusu yığdırdı, Milli Məclisin o vaxtkı deputatı Aydın Cəfərovun sürücüsü ilə Füzuliyə göndərdik. Getdi, çatdı, amma sonrakı aqibəti bilinmədi.

Sonralar Bərdə rayon İcra Hakimiyyətinin başçısı işləyən rəhmətlik Aydın müəllim o günləri həmişə çox böyük kədərlə yada salıb: Əgər mümkün olsaydı, yəni, satsaydılar o silahdan üçünü alardım, birini adaşım Aydının adı ilə, birini kolxozda adi mexanik işləyəndən bu yana aramızda yaranmış təmənnasız və sədaqətli dostluğumuza görə sənin adınla Füzuliyə göndərərdim. O, min bir minnətlə aldığımız "qradı" Rüstəm Səfərəliyevin ruhuna hədiyyə elədim deyirdi. O da yadımdadır ki, o vaxt Aydın müəllim haradansa tapdığı təbaşirlə qradın trubalarının birinin üstünə "R.Səfərəliyevin xatirəsi üçün. Bərdəlilərdən" yazdı.

Özü Füzulidən olmayıb Füzuli üçün böyük canıyananlıqla qayğı göstərən bu cür qədirbilən insanların bəzilərinin adlarını çəkməklə üstündən 30 il keçsə də onların xidmətlərinin unudulmadığını bildirmək istəyirəm. Belə misalları çox çəkmək olar. Füzulinin unla, çörəklə fasiləsiz və həm də bol-bol təmin olunmasında bir müddət Yevlax şəhər-rayon icra hakimiyyətinin başçısı işləyən, jurnalist dostum Ramiz Əhmədovun, Taxıl Tədarükü naziri Zakir Abdullayevin xüsusi xidmətləri olmuşdur.

Yaxşı deyirlər ki, qonşu payı ilə ailə saxlamaq olmaz. Kimlərinsə köməyi, qayğısı öz yerində, o vaxt Füzulinin qorunması üçün ən böyük ağırlıq elə Füzulilərin özlərinin üstünə düşürdü. Elə bu məqsədlə yaradılan "Quruçay" Cəmiyyətinin gördüyü işləri saymaqla qurtarmaq olmaz. Övladının toyu üçün manat-manat yığdığı pulu, qara gün üçün topladıqlarını bu məqsədlə ortaya qoyanların sayı hesabı yox idi. Maşınını satıb silaha verənlər də oldu. Amma görülən bütün bu tədbirlərin, çəkilən bu zəhmətin nəticəsi olmadı.

***

...1993-cü il avqustun 17-si idi, işə yenicə gəlmişdim, *(onda Milli Məclisdə vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsinin müdiri işləyirdim)* əslən Cəbrayıldan olan, Respublikanın keçmiş Baş Prokuroru, vətənini və xalqını ürəkdən sevən, yaxın dostum Murad Babayev zəng etdi. Salam-kalamdan sonra birbaşa mətləbə keçdi. "Deputat Əli Həsənovla bir yerdəyik *(Respublika Baş Nazirinin sabiq müavini işləyən Əli Həsənov. O da Cəbrayıllıdır).* Bizim dəqiq məlumatımız var. Ermənilər hazırlaşıblar. Bu gün sabah Füzulini də, Cəbrayılı da işğal edəcəklər. Sözümüzü cənab Prezidentə çatdır. *(onda Heydər Əliyev cəmi iki ay idi ki, Milli Məclisin sədri seçilmişdi. Elçibəy qaçdığına görə Prezidenti o əvəz edirdi)* Murad müəllim daha heç nə demədi. Az sonra yenidən zəng edib: sən Prezidentə müraciət hazırla, biz də gəlirik - dedi.

Füzuli, Cəbrayıl rayonları ağsaqqallarının, ziyalılarının, deputatların adından müraciət hazırlayıb elə həmin gün Heydər Əliyevə çatdırdım. Müraciətdə rayonların müdafiəsinin zəif təşkil olunduğunu, özünümüdafiə batalyonlarının əlaqəsizliyini, Füzuli və Cəbrayıl rayonlarında işləyən bəzi rəhbər işçilərin səriştəsizliyini, xalqın onlara inanmadığını, adamlar arasında xoşagəlməz və qorxu xofu yaradan şayələr yayıldığını göstərmişdik.

Səhəri gün, avqustun 18-də saat 12:00-da Heydər Əliyevin yanında Respublika rəhbərlərinin iştirakı ilə xüsusi müşavirə keçirildi. Təqribən bir saata qədər, dayanmadan, ayaq üstə, əsəbi halda danışan Heydər Əliyev çoxlarını ona düzgün məlumat verməməkdə günahlandırdı. Respublika Nazirlər Kabineti sədrinin birinci müavini, Milli Məclisin indiki deputatı Vahid Əhmədov başda olmaqla Dövlət komissiyası yaratdı. Komissiyanın tərkibində Vahid Əhmədovdan başqa Baş Nazirin daha bir müavini, sonralar uzun illər Respublika Müdafiə Naziri işləyən Səfər Əbiyev, Respublika Rabitə Naziri Sirus Abbasbəyli, Respublika Səhiyyə Naziri Rahim Hüseynov və digər bir çox vəzifə sahibləri ilə yanaşı Füzuli rayonundan olan deputatlar, Aslan Mehdiyev, Aydın Cəfərov, akademik Arif Quliyev və mən də var idim. Heydər Əliyev elə bu gün rayona, Füzuliyə, Cəbrayıla getməyi, axşama, ən azı sonrakı gün ona dəqiq məlumat verməyi tapşırdı *(Ölkə Prezidenti elə həmin gün də Nəbi Muxtarovu Füzuli rayon İcra Hakimiyyətinə başçı təyin etdi, onu təqdim etməyi də Vahid Əhmədova tapşırdı).* Müşavirə qurtaranda rəhmətlik Afiyəddin Cəlilov mənə yaxınlaşıb: sən gözlə, Füzuliyə yeni başçı təyin olunacaq, onun sənədlərini götür, Səhiyyə Naziri Rahim Hüseynovun vertalyotu ilə gedərsən - dedi.

Şəxsiyyətinə böyük hörmət bəslədiyim, yüksək təşkilatçılıq qabiliyyətinə malik olan, insanları bir məqsəd uğrunda səfərbər etməyi bacaran Nəbi Muxtarovu lap gənc yaşlarından, hələ Rayon Komsomol Komitəsinin Birinci katibi işlədiyi illərdən tanıyırdım. Sonra bir müddət kənd təsərrüfatı sahəsində çalışan Nəbi müəllimi rəhmətlik Yunis Rzayev Dövlət Üzümçülük və Şərabçılıq Komitəsi sədrinin müavini vəzifəsinə gətirdi. Son vaxtlar isə Qaçqınlar və Məcburi Köçkünlərlə İş Üzrə Dövlət Komitəsi sədrinin müavini işləyirdi. Onu da deyim ki, hələ bir neçə gün əvvəl Afiyəddin Cəlilov Nəbi Muxtarovla əlaqədar mənimlə danışıb fikrimi soruşanda "Nəbidən başqa heç kim o işi bacarmaz" demişdim. Bu doğrudan da belə idi. O çətin günlərdə bir növ rəhbərliyə inamın itirildiyi bir vaxtda Füzulidə rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini ancaq və ancaq Nəbi müəllim idarə edə bilərdi. Nəbi Muxtarovun adını çəkib haqqında xoş sözlər deməklə o ağır illərdə Füzulidə müxtəlif vəzifələrdə işləmiş, Füzulinin bir çox kəndlərinin qorunub saxlanmasında və sonralar işğaldan azad olunmasında xüsusi xidmətləri olanların əməyini azaltmaq fikrində deyiləm. Onların hamısı, idarə rəhbərindən tutmuş adi taksi sürücüsünə kimi, bütün insanlar öz imkanları daxilində müəyyən işlər görmüşlər. Bu gün Horadizin müasir şəhər kimi formalaşmasında və digər bir çox işlərin görülməsində, rayonun iqtisadiyyatının yüksəldilməsi üçün çox vacib olan bir çox problemlərin həllində Alı müəllimin özünə məxsus payı var.

...Qaraxanbəyli kəndində görüşdüyümüz, iki gün əvvəl: "....siz Füzulidən arxayın olun, Füzulini özümüz qoruyacağıq" deyənlərin hamısı, polis içiləri də, hərbiçilər də, icra hakimiyyətinin rəhbərləri də şəhərin Ermənilər tərəfindən işğal olunduğunu dedilər. Ona görə də yeni icra başçısının təqdim etmə mərasimini Qaraxanbəyli kəndində, savxoz idarəsində keçirtdik. Nəbi müəllim adı olub özü olmayan rayonun icra başçısı oldu. İclasın sonunda bizə yaxınlaşan, o vaxt Füzulidə çörək zavodunun direktoru işləyən qardaşım Tahir Quliyev çox qətiyyətlə: "Bu gün səhər mən şəhərdə olmuşam, Füzuli işğal olunmayıb. Bu şayəni kimlərsə təxribat kimi yayıblar"- dedi. Onun qətiyyətli fikrinə inanan Vahid müəllim də qəti qərar qəbul etdi. Maşınlara minib Füzuli şəhərinə getdik.

Vahid müəllim ilk əvvəl şəhərlə tanışlığa başladı: Çörək zavodunun yanından keçib mərkəzi xəstəxanaya baxdı, keçmiş Lenin küçəsi ilə birbaşa vayonkomatın dikinə qalxdı, oradan da geri dönüb köhnə klubun yanından Horadiz yoluna keçdi, dəyirmanın yanından yuxarı qalxdı. Füzuli həmin Füzuli idi. Şəhərin qaməti hələ pozulmamışdı, ağırlıqdan qanadları əyilmiş rəngbərəng meyvə ağaclarının düzümü, elə o illərdəki kimi yaraşıqlı idi. Hər tərəfdə böyük və cansıxıcı bir sakitlik, daha doğrusu insansızlıq hökm sürürdü. Bəzi həyətlərdə sahiblərinin tutub apara bilmədikləri toyuq-cücənin səsi eşidilirdi. Şəhərin çaya yaxın hissəsi çöl quşları ilə dolmuşdu. Ala saxsağan, qara qarğa, bayquşlar, nə bilim adını bilmədiyim neçə rəngdə, neçə cür quşlar küçələrdə meydan sulayırdı.

Geri qayıdan Vahid müəllim İcra hakimiyyətinin tayba-tay açıq qapılarından birbaşa ikinci mərtəbəyə qalxdı. Başçının toz basmış otağında kiçik bir müşavirə keçirtdi. Telefon-teleqrafın işləməsi üçün komissiyanın üzvü, Rabitə naziri Sirus Abbasbəyliyə, xəstəxananın fəaliyyətinin bərpası üçün Səhiyyə naziri Rahim Hüseynova, Müdafiə Nazirliyinin qərargah rəisinin müavini Səfər Əbiyevə, Daxili İşlər Nazirliyinin nümayəndəsinə lazımi tapşırıqlar verdi.

Verdiyi tapşırıqların yerinə yetiriləcəyinə özü də inanmayan Vahid müəllim bəlkə də əsəblərini sakitləşdirmək üçün su istədi. Onda küçələrdəki borulardan da, elə icra hakimiyyətinin binasındakı borulardan da öz axarı ilə su gəlirdi. Səhv etmirəmsə Aslan Mehdiyev suyun "Qarabulaq"dan gətirilməsini məsləhət gördü. Çünki Füzuliyə gələn suyun mənbəyi ermənilərin əlində olan kəndlərdə idi.

"Qarabulaq" *(suyu qar kimi soyuq olduğuna görə bir vaxtlar ona "Qar bulaq" da deyiblər).* Şəhərlə Fialetovka kəndinin arasında Çərəkən çayının üstündə salınmış tağlı körpünün yanında çağlayan bu bulağın kim tərəfindən, nə vaxt qazılıb səliqəyə salındığını, bəlkə də tapıldığını heç kim bilmir. Hamıya o məlumdur ki, indiki Füzuli şəhərinin ilk sakinləri məhz bu bulağın ətrafında yerləşiblər. Görünür elə buna görə də Füzulinin ilk adı Qarabulaq olub. Sonralar Ruslar Azərbaycana köçürüləndə indiki Fialetovka (Malaqanlar) kəndinin sakinləri də bu bulağın yaxınlığında məskunlaşıblar və o vaxt onlar çoxluq təşkil etdiklərinə görə ora Malaqan adlanıb. Yeri gəlmişkən deyim ki, 1903-cü ildə Tiflisdə çap olunmuş "Cənubi Qafqaz" adlı xəritədə indiki Füzulinin adı Qaryagin (Qarabulaq) kimi göstərilib. 1959-cu ildə isə əbədi cənnət olan keçmiş Karyaginə böyük şairimiz Füzulinin adı verilib.

...Adamlar Qarabulağa su dalınca gedəndə mən də bulağın yolunu göstərmək adı altında Vahid müəllimdən icazə alıb Səfər Əbiyevlə *(sonralar o, uzun müddət Respublika Müdafiə Naziri işlədi)* şəhərə çıxdıq. Şagird yoldaşlarımın, doğmalarımın hələ sökülüb dağılmamış gələcək xarabalıqlarına baş çəkdim. Bazarı keçib 8-10-cu siniflərdə oxuduğum Natəvan adına məktəbə çatdıq. Burada da lal sükut hökm sürürdü. Qapılar bağlı idi. Pəncərədən keçib düz üç il bezar saldığım ikinci mərtəbənin küncündəki sinif otağına girdim. Hər yerdə lal bir sükut hökm sürürdü. Elə bil ki, elə bu saat zəng çalınacaq, yenə də dərs başlayacaqdı. Üççə dəqiqədə bu sinifdə mənə dərs deyən müəllimlərin hamısı - Barat müəllim, Gəncalı müəllim, Zöhrə müəllimə, Məhparə müəllimə, Nailə müəllimə, Mamed müəllim, bir partada oturduğum rəhmətlik Seyid Əşrəf *(onun məzarı Xırdalan qəbiristanlığının lap yuxarısında yerləşir, ümumxalq ziyarətgahıdır),* Elza Heydərova, Roza Hüseynova, Mərziyə Axundova, Millət Quliyev, Rəhman Hüseynov, Amil Məmmədov, Cəmiyyət Vəliyev və daha kimlər gözlərimin önündə canlandı, Ana haqqında, vətən haqqında, oxumaq, öyrənmək haqqında müəllimlərimin dedikləri hikmətli sözlər qulaqlarımda cingildədi. İri qara lövhəyə "Biz qayıdacağıq!" yazıb otaqdan çıxdım.

Geri qayıdıb Çərəkən çayını keçdik. Köhnə klubun yanından bir az yuxarıda məscidin üstündə görkəmli xanəndə, böyük muğam ustası Ağabala Abdullayevin həyətinə girdik. Daha nə onun şaqraq gülüşü, nədə ki, "zabul" üstündə inildəyən səsi eşidilmirdi.

...Böyük xahiş-minnətdən sonra Generalı rayon mərkəzinə bitişik olan kəndimizə, - Dədəliyə getməyə razı saldım. Getdik. Amma çata bilmədik. Şəhərin qurtaracağında Dədəlinin girəcəyindəki iki qəbirstanlığın arasından qalxanda sağ tərəfdəki şərab zavodundan ermənilərin texnikasının səsi eşidildi. Səfər müəllim qətiyyətlə: Burdan o tərəfə getmək olmaz - dedi. Bircə onunla razılaşdıq ki, heç olmasa....

Əyilə-əyilə kəndimizin qəbiristanlığına girdim. Daşların arasından adlayıb mənim üçün cəsarət və ləyaqət simvolu olan, bütün dədəlilərin baba deyə dindirdiyi Nəriman babamın, atamın, anamın, qardaşımın və digər dədəlilərin qəbir daşları arasından bir ovuc torpaq götürüb dəsmalıma bükdüm. Şəhidlərin qəbrinə yaxınlaşmaq istəyirdim ki, dalbadal açılan iki güllə Çingiz Sadıqovun qəbrinin yanında torpağı göyə sovurdu...

Çingiz Sadıqovu kənddə hamı Fətullahın kiçik oğlu kimi tanıyırdı. Keçən əsrin əvvəllərində dinimizi təhqir etdiyinə görə iki ermənini güllələdiyi üçün elindən, obasından qaçaq düşən Fətullah kişi elə sovet hakimiyyətinin ilk illərində də bir müddət qaçaqçılıq etmişdir. Vətən dara düşəndə atasından qalan qoşalüləni götürüb müdafiə batalyonuna qoşulan Çingiz atası kimi dəqiq güllə atan, qorxmaz bir oğlan imiş. Uzun müddət onunla birlikdə vuruşan Alim Fərəcov deyir ki, "komandir hansı tapşırığı versə Çingiz hamıdan qabaq əlini qaldırırdı. Hər dəfə də zarafatla: məktəbdə pis oxumuşam, heç bir dərsdə əlimi qaldırmamışam. İndi onun əvəzini çıxıram - deyirdi. Çox sərrast atıcı idi. Quşu, daha doğrusu ermənini gözündən vururdu. Ona görə də batalyonda hamı ona snayper Çingiz deyirdi. Elə özü də düşmənin snayperi ilə qətlə yetirildi...

Axşamlar kənddəki özünümüdafiə batalyonunda növbə çəkən Çingiz gündüz müəyyən tapşırığı yerinə yetirərkən Füzuli-Qırmızı bazar yolunda Ermənilər tərəfindən güllələndi. O, Dədəlilərdən müqəddəs şəhidlik adına yüksələn ilk gənc idi. İndi onların sayı çoxdur, lap çox.

Dəsmalıma büküb gətirdiyim o bir ovuc torpağı neçə ildir ki, Dədəlisiz dünyasını dəyişən Dədəlilərə çimdik-çimdik paylayıram. Üç ay əvvəl 97 yaşlı Mürşüd kişinin "torpaq payını" verəndə: "Kaş bu kişi Dədəlisiz dünyasını dəyişən axırıncı Dədəli olsun" - dedilər. Amma axırıncı olmadı. Bu yaxınlarda o vaxt bizi Füzuliyə aparan qardaşım Tahirə də Dədəlidən götürdüyüm torpaqdan bir çimdik pay düşdü. Füzulilərin bizim çörək təhnəmiz dediyi *(o, ən çətin illərdə Füzuli çörək zavodunun direktoru işləmişdir)* Tahiri də itirdik. Qəfil ölüm onu yaxalayanda yanındakılara: Ölsəm üzümü Dədəliyə tərəf basdırın. Mənim Qibləm Dədəlidir - demişdi.

Elə bu dəfn mərasimində eşitdim ki, Dədəlilər müqəddəs arzularına yetişib, kəndə qayıdanda kənddən şəhidlik zirvəsinə yüksələn igidlərin və bir də dünyasını Dədəli həsrəti ilə qürbətdə dəyişən Dədəlilərin xatirəsini əbədiləşdirmək üçün Kəhrizin üsündəki o məğrur çinarın qanadları altında əsrin faciəsini əks etdirən bir abidə-muzey ucaltmaq fikrindədirlər. Onu da dedilər ki, bu abidə muzeyə qoymaq üçün Dədəlisiz dünyasını dəyişən hər bir Dədəli qaçqının saçından bir çəngə kəsib muzey üçün saxlayırlar...

Zülmət gecədən sonra günəşli sabahın açılacağı labud olduğu kimi Erməni işğalçılarının torpaqlarımızdan qovulacağı o gün də labuddur. İnanıram ki, o gün tezliklə gələcək. Bütün qaçqınlar və məcburi köçkünlər doğma kəndlərinə, şəhərlərinə qayıdacaqlar. Ona da inanıram və həm də istərdim ki, o kəndin, o şəhərin ən görkəmli yerində müqəddəs şəhidlərimizin, bir də heç kəsin, heç kimin unudulmaması üçün qürbətdə qaçqın kimi dünyasını dəyişən həmyerlilərimizin şərəfinə layiqli bir abidə ucaldılsın. Bu abidə bir də ona görə lazımdır ki, gələcək nəsillər Erməni cəlladlarının vəhşiliklərini heç vaxt yaddan çıxarmasınlar.

***

...İcra hakimiyyətinə çatanda Vahid müəllimin narahatlığı aydın hiss olunurdu. O, nə qədər çalışsa da özünü saxlaya bilmədi: Hamı sizi gözləyir, siz də.... Daha sözünü tamamlamadı. Oturun gedək, sabah yenə qayıdacağıq - dedi. Maşınlara hamıdan axırda mən mindim, getdik. Sabah açıldı, amma qayıtmadıq. Avqustun 23-də Füzuli işğal olundu. O vaxtdan hamı kimi mən də Füzuliyə getmək üçün açılacaq o sabahı gözləyirəm.

Düz 27 ildir ki, ana torpağa qovuşmaq həsrəti ilə yanan Füzulilər də o xoş günü gözləyirlər. Bu illər ərzində füzulilər Azərbaycanın, eləcə də dünyanın ən gözəl guşələri kimi tanınan respublikamızın cənnət məkanında yerləşsələr də, Bakıda ən gözəl şəraitlə təmin olunsalar da, ölkə prezidentinin hərtərəfli qayğısı sayəsində bir vaxtlar qaçqınların sığındıqları çadır şəhərcikləri çoxdan ləğv olunub, bütün qaçqınlar kimi Füzuli qaçqınları da elə Füzulinin özündə tikilmiş rahat qəsəbələrə köçsələr də, Füzulilər hələ də vətən həsrəti ilə yanıb yaxılırlar. Vətənin, torpağın qədrini bilməyən bir alman filosofu ***"Harada bizim üçün yaxşıdırsa, ora da vətəndir" deyib ("üç min ilin hikməti" səh. 135).*** Vətənin, torpağın qədrini hələ min illərdən o yana yaxşı bilən atalarımızın dilindən qopub bu günümüzə çatan atalar sözlərində isə qarnını vətənindən üstün tutan o filosofa yaxşı cavab verilir: ***"Vətənin bir qışı qürbətin yüz baharından yaxşıdır" yaxud "Vətən viran da olsa, cənnətdir".***

Bu yerdə bir vaxtlar qürbətdə yaşayan həmyerlimizin dediklərini adi söz kimi qəbul etdiyimə indi peşmançılıq çəkirəm. 1969-cu ilin fevralında SSRİ-nin müsəlman respublikalarından təşkil olunmuş turist qrupunun tərkibində Misirə getmişdim, Qədim abidələrin birinin yanında Ucar rayon Komsomol Komitəsinin Birinci Katibi Tamara xanımla, Kürdəmir rayonundan olan gənc aqranom Ədalətlə nə barədəsə danışırdıq. Yaxınlıqda dayanıb bizə diqqətlə qulaq asan 60-65 yaşlı kişi azərbaycanlı olduğumuzu biləndə kövrəldi... Bakıdan, içəri şəhərdənəm. 40 ildir bura köçmüşük. O maqazinlərin üçü də mənimdi. Bu otelə də şərikəm, yaxşı rahatlığım, evim, eşiyim, gəlirli işim var. Amma vətənsizəm. **Qürbətdə otel sahibi olmaqdan vətəndə faytonçu olmaq yaxşıdır** - dedi.

**Deyirlər əzizlərindən ayrılan yeddi il ağlar, vətənindən ayrılan ömrü boyu. Vətən həsrəti ilə yanıb yaxılan füzulilər düz 27 ildir ki, kirimirlər, Füzuliyə gedən yolları kəsən o gözəgörünməz zəncirlərin qırılacağı, kilidlərin açılacağı o günü gözləyirlər. O gün isə uzaqda deyil. Ölkə Prezidenti İlham Əliyev Cənablarının apardığı dəqiq və düşünülmüş siyasət, ordumuzun son illərdəki uğurları, birdə ki, azərbaycanlı anaların böyütdüyü, torpaqlarımızı faşist xilqətli Ermənilərdən azad etmək üçün canlarından keçməyə hazır olan, biri min erməniyə bərabər igidərimizin şücaəti göstərir ki, doğulub boya başa çatdığımız torpaqlarımıza qayıdacağımız günə az qalıb, lap az.**

# Ruhu səmalarda pərvaz edən Mələykə Səma: "Qarabağın azad olunacağı gün...!"

**Qarabağ müharibəsinin ilk günlərindən həkim-cərrah olaraq ermənilərlə döyüşlərdə yaralanmış yüzlərlə Azərbaycan əsgərini ölümdən qurtaran birinci dərəcəli tibb xidməti kapitanı, "Azərbaycan bayrağı" ordenli Mələykə (Səma) Əhmədovanın bu gün anım günüdür.**

Adalet.az xəbər verir ki, kapitan Mələykə Əhmədova 1957-ci ildəQərbi Azərbaycanın Loru mahalının Allahverdi (Tumanyan) rayonunda anadan olub. Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizəyə 1988-ci ildə qoşulub. Döyüş bölgəsindəki fədakarlığına, tibbi xidmətin təşkilində xüsusi xidmətlərinə, torpaqlarımızın erməni işğalından müdafiəsində göstərdiyi şəxsi şücaətinə və igidliyinə görə "Azərbaycan Bayrağı" ordeni, "Qüsursuz xidmətlərə görə", "Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 10 illik yubileyi" medalları ilə təltif olunub. "Mələykə Səma" imzası ilə 20-dən artıq kitabı çap olunub.

## *Mələykənin üç qardaşı ...*

1988-ci ildə Ermənistandan qovularkən qardaşı Yaqub Əhmədov ermənilər tərəfindən qətlə yetirilib. Daha sonra kiçik qardaşı 16 yaşlı Səyyad Əhmədov da ermənilər tərəfindən suda boğularaq öldürülüb. Böyük qardaşı Kamandar Əhmədov Qarabağ uğrunda müharibədə şəhid olub. Kamandar Əhmədov BakıdaŞəhidlər Xiyabanında torpağa tapşırılıb.Bakıküçələrindən biri Kamandar Əhmədovun adını daşıyır. Mələykə xanımın tası Əhməd kişi üçüncü oğlunun ölümünə dözməyərək vəfat edib. Azərbaycanda ilk hərbi səhra-cərrahiyyə hospitalını yaradanlardan biri olan, elimizin qəhrəman qızı yağılardan intiqam almayınca hərbi formasını əynindən çıxarmayacağına söz vermişdi. Xəstə yatağında ölümlə çarpışan Mələykə xanımın ürək sözləri: "Xalqımız və gələcəyimiz hesab olunan gənclər bilməlidir ki, Qarabağ uğrunda minlərlə qəhrəman oğullarımız şəhid olub. Onların ruhları itkin torpaqlarımız üzərində pərvaz edir. İntiqam alacağımız günü, Qarabağın azad olunacağı günü gözləyir. Qarabağın azad olunması üçün əlimizdən gələni etməliyik. Kimlərinsə gəlib bizim torpaqlarımızı azad etməsinə inanmaq sadəlöhvlük olar. Savaş əmrinə həmişə hazır



olmalıyıq". Hazırda Mələykə Əhmədovanın pak ruhu da itkin torpaqlarımız üzərində pərvaz edir. 18 avqust 2006-cı ildə Bakı şəhərində vəfat edib və II Fəxri Xiyabanda dəfn edilib.

Mələykə Əhmədovanın "Vətən həsrəti" adlı şeiri vətəndən didərgin düşənlərin yaralı-yaslı ağısıdır sanki:

**Çay batıb, çaylaq qalıb,**
**Ceyransız oylaq qalıb.**
**Dağlar qəm libasında,**
**El köçüb yaylaq qalıb.**

**Şamama qopub tağdan,**
**Alma düşüb budaqdan.**
**Ey gözümün işığı**
**Məni qurtar bu dağdan.**

**Eləmi dağlar çəkər,**
**Dumanı dağlar çəkər.**
**Şəhid bala dağını**
**Analar ağlar, çəkər.**

**Eləmi, Vətən yeri,**
**Yurd yeri, Vətən yeri.**
**Haraylayıb gəzirəm**
**Bülbüllər ötən yeri.**

**Əzizim, qala dərdi,**
**Yurd dərdi, qala dərdi.**
**Elim xoş günlər görə**
**Düşmənə qala dərdi.**

**Yuvadan uçan ağlar,**
**Vətəndən qaçan ağlar.**
**Dərdlilərin içində**
**Obadan köçən ağlar.**

**Əntiqə Rəşid**

# Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

№ 93 (2127) 20 avqust 2020-ci il


# Müharibə və ədəbiyyat

## ("Olmuşlar və olacaqlar" silsiləsindən)

***Vətən hamı üçün əzizdir. Buna görə də bütün dünyada qanundarları sürgün edilməyi böyük cinayət üçün ən ağır cəza yazırlar. Təkcə qanundarlar bu cür düşünmürlər. Orduların başında duran mötəbər adamlar üçün də bu, bir qanundur.***

***Qanlı vuruşmalarda əsgərə "sən vətən uğrunda döyüşürsən" - deməkdən böyük söz yoxdur. Bunu eşidən hər kəs öz yoldaşından daha ləyaqətli olmağa çalışacaqdır. Zira, Vətən sözü cəsarətsizi də qəhrəmana çevirir.***

**Lukian**

Qədim Yunan filosofu və yazıçısı (125-180) bu kəlamları yazarkən müasirlərinə və gələcək nəsillərə üz tutaraq "Vətən" məfhumunun müqəddəsliyinə inandırmaq istəmişdir. Tamamilə haqlı idi, dinc yaşamağı sevməyən, işğalçılıq xəstəliyinə yoluxan tiranlar nə qədər qələbələr qazansalar da sonu faciə ilə nəticələnmiş, torpağın onun nəşinin qəbul edib-etməyəcəyi intizarı ilə gözlərini yummuşlar. Mən bu barədə düşünəndə bir "üçlüyü" gözümün qabağına gətirirəm, daha doğrusu, onların miskin taleyini: İsgəndər, Napaleon və Hitler. Bu simalara Allah - Təala doğma evlərində ata - analarının, övladlarının yanında rahat ölməyi qismət etmədi, Və-tənləri parçalandı, soydaşları didərgin düşdü, ata - anaları ağlar qaldı, silahdaşları dizlərini qatladılar. Bu olaylar mənəvi dəyərlərdir, fateh ruhlulara xəbərdarlıqdır, "adamlar içərisində özgəsi yoxdur" deməkdir. Bu insanlar doğulmuşlar ki, bir-birini başa düşsünlər, sevsinlər, onun üçün övladları vardır, bu uşaqlar dünyanın istisini - soyuğunu çəkəcəklər, yenidən odu, yenidən insanlığı kəşf edəcəklər. Yaxşı haldır və təsəllivericidir ki, heç də bütün rəhbərlər od - alovla oynamağı sevmirlər, qan gölməçələri yaratmağa nifrət edirlər, yoxsa Dünyanı qara tüstü bürüyərdi!

***Amma xalqının başına keçib millətini fəlakətə sürükləyən, fəsadlara düçar edən, başqa torpaqlara göz dikən alçaq, rəzil, dinsiz dövlət başçıları yox deyil. Necə ki, tarixlər dönəmində öz yurdu olmayıb qoltuğa sığınan, fürsət tapıb özünü həmin məkanın sahibi hesab edən, mədəniyyət nümunələrini həyasızcasına oğurlayan, qəsbkarlıq psixologiyası ilə yüklənən erməni daşnaqlarının burnu əzilsə də özlərinə qoyulmurlar. Onlar artıq qüvvəsini itirmiş "yersiz gəldi, yerli qaç" şüarı ilə hərəkətdədirlər; çox nahaq!***

Mən müharibə vaxtı doğulmuşam, yaşım davanın nə olduğunu anlatmamışdır, sonralar xatirələrdən və dərsliklərdən bəzi şeylərdən agah oldum. Və bir nəsnə, xüsusilə, mənə təsir etdi: Vətən müharibəsi (!) başlanan ilk günlərdən böyük şairimiz Səməd Vurğunun:

**Bilsin ana torpaq, eşitsin Vətən,**
**Müsəlləh əsgərəm mən də bu gündən!**

- məşhur misraları insanları faşizmi əzməyə hazır olduğuna inandırdı. Ona görə ki, 1920-ci ildən babalarımız müharibə görməmişdi, nə də onların övladları.

Lakin babalaşmış o cavan soydaşlarımız da, onların uşaqları da Qarabağ müharibəsini 30 ilə yaxındır yaşamaqdadır. Erməni quldurları: boş xəyalpərəstlər, dəyərsiz başçılar, gələcəyi olmayan siyasətbazlar öz təcavüzlərilə alman faşistlərinin atalarına rəhmət oxutdururlar: onlar qızğın gedişlərində belə, dinc əhaliyə bir güllə də atmamışlar, hətta qocaların, uşaqların əlindən su alıb içmişlər, baş əymişlər.

Erməni xəya-nətkarlar isə əksinə, vəhşiləşir və bu qeyri-əxlaqi davranışlarından zövq almışlar. Bəs belə "cəsarətə" kimin hesabına gəlmişlər? Künyələri rusun qucağında, dizləri yerdə, qırxılmış kəllələri sallaqlı!

Müharibənin yazılmış və mübhəm prinsipləri həmişə mövcud olmuşdur, torpaq və mənəviyyat uğrunda ölüm - dirim savaşında ən optimal dəyərlərə, vasitələrə əl atmışlar, yararlanmışlar.



Əvvəllər baş vermiş müharibələrin müsbət təcrübələrini öyrənmiş, rasional nəticələrə söykənmişlər. Bunlar içərisində ən qiymətlisi bədii ədəbiyyat olmuşdur. Böyük Vətən müharibəsilə Sovet tarixşünaslığına düşmüş davada (1941-1945) Azərbaycan xalqı da fəal döyüşçü olmuş, qəhrəmanlıq göstərmişlər, ana Vətənindən çox-çox uzaqlarda rus, ukrayn, belorus və s. torpaqlarda şəhid vermiş, faşizmdən azad etmişlər. Arxa cəbhədə (vacib deyil müharibə olsun) isə hər bir təbəqə öz vəzifə borcunu yerinə yetirmişlər, o cümlədən, yazıçılarımız, şair-lərimiz. Müharibənin ilk günlərindən, yaşından asılı olmadan əlinə qələm almış, könüllü cəbhəyə yollanmışlar. İş elə gətirmiş ki, repressiyadan sonra 30-40 yaşlarında, onlardan bir qədər kiçiklər maraqlı bədii əsərlər: dramlar, şeirlər, hekayələr, povestlər və romanlar yazıb çap etdirmişlər, əsgərlərimiz də bunları oxumuş, ruhlanmış, hətta müəlliflərlə məktublaşmışlar. Həmin qələm sahibləri poeziyada S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, Əhməd Cəmil və başqaları: nəsrdə M.İbrahimov, M.Hüseyn, Mir Cəlal, Əbülhəsən, İlyas Əfəndiyev, Ə.Məmmədxanlı, Oruc Qoş-qarlı və başqaları, dramaturgiyada adlarını çəkdiyim müəlliflər və başqaları. Publisistlərimiz isə daha operativlik göstərirdilər, faşizmi ifşa edən məqalələr çap etdirirdilər. Deməli, ədəbiyyatın bir mühüm funksiyası qabarıq şəkildə meydana çıxdı: bədii əsərlər janrından asılı olmayaraq estetikliyini saxlamaqla vətənpərvərlik tərbiyəsini, insanların (xüsusilə, cəbhədə) psixoloji durumunu (hissiyyatını), zövqünü, yaşamaq eşqini aşılamalıdır. Məhz bizim söz sərkərdələrimiz bu mənəvi - sosial vəzifəni layiqincə ödədilər. Hətta şeirlərlə bərabər poemalar qələmə aldılar, nəzmlə pyesləri səhnəyə çıxartdılar. Ortada Vətən sevgisi vardı, ana intizarı dolaşırdı, arxada qoyub gəldiyi sevgisinə qovuşmaq inamı ilə yaşayıb döyüşürdü. Məmməd Rahim duyğulanıb yazmışdı.

*Xəbər alsan "nə var belə şair coşursan?*
*Yatmayırsan gecə - gündüz dastan qoşursan?*
*Nədir sənə ilham verən, nədən danışırsan?" -*
*O, söyləyər cəsarətlə: Vətən sevgisi!*

Rəsul Rza Vətənin ağır çağlarına işarə vurur:

*Ana Vətən, indi bu gün çatılmışdır qaşın sənin,*
*Yanır qəzəb alovuyla torpaqların, daşın sənin.*
*Cavanların, qocaların silahlanmış başdan-başa,*
*Azadlığı qorumaqçın girmiş böyük bir savaşa.*
*...Taleyini öz yurdunun taleyinə bağlayaraq,*
*Kişilərin, qadınların hazır durmuş əldə yaraq.*

Mən böyük şairimiz Rəsul Rzanın məhz bu şeirini seçməkdə yanılmadım məhz iyul günlərində (12.07.2020) erməni vandalistlərinin müharibəyə təhrik etmək cəhdini xatırladım və bu poetik nümunənin sanki indicə yazıldığına inam gətirdim. Vətənimiz məsul, əsgərlərimiz, zabitlərimiz nikbin, qələbəyə inam hisslərini yaşamaqdadır: cavanlar da, qocalar da silahlanmışdır. Ali Baş Komandamızın cəsarətli addımı ilə, səfərbərliyə çağırışı ilə, inamı ilə!..

S.Rüstəm vaxtilə düzgün proqnoz vermişdir bir şeirilə:

*Ey bu torpaqlar üçün torpağa dönmüş əsgər!*
*Gün gələr, ecdə edər ölkənə, dünya baş əyər...*

Dünyanın sülhsevər xalqlarının erməni təcavüzkarlarına cavab olaraq ayağa qalxması, "Biz Azərbaycanın yanındayıq" hayqırtısı ilə necə də səslənir! Ədəbiyyatın vəzifəsi təbii ki, vətəndaş tərbiyəsinə estetik cəhətdən yardımçı olmaqdır: Ləyaqət, İdrak və Namus toxumları səpməkdir, bu isə vətənpərvərlik, insaniyyət aşılamaqdır. Cəsarətsiz məhəbbət hissi kütdür, kəsərsizdir. "Nə gözəldir igid olmaq, mərd yaşamaq bu dünyada" - Səməd Vurğun vurğulamışdır.

Müharibənin fəlsəfəsində Vətən hissiyyatı, Vətəni qorumaq, bütövlüyünə təminat vermək dayanırsa bu, düşmənə olan ehtirasa çevrilir, əksinə, "danışır", sönmür alovlanır, ədəbiyyat ağır günlərdə bu dildə səslənir Fransız yazıçısı və pedaqoqu Deni Didro yazmışdır: Hər ehtirasın öz dili vardır, bu dil o qədər qüdrətlidir ki, sözsüz də məni sarsıdır. Bu, təbiətin sadə dilidir. Ən gözəl şeirin mənasını çoxları başa düşmədiyi halda, ruhun dərinliyindən gələn əzablı bir ahdan hamı müqəssir olar. Göylərə doğru açılmış qollardan, boşluqlara dikilən gözlərdən, zərif və şikayətlə dolu bir nalədən olmayan bir qəlb, həyəcana düşməyən bir ürək tapılmaz".

**(ardı növbəti sayımızda)**

***Allahverdi Eminov***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Zaqatalada bir beynəlmiləl məktəb var...

**Bu təhsil müəssisəsində müxtəlif millətlərdən olanla yanaşı, doğma yurd-yuvalarını məcburən tərk etmiş ailələrin uşaqları da oxuyurlar.**

Zaqatala rayonu Qazangül qəsəbəsi İsmət Qayıbov adına tam orta məktəbi rayonun ən nümunəvi, təhsil nailiyyətləri ilə fərqlənən təhsil müəssisələrindən biridir. Bu beynəlmiləl məktəbin işgüzar, bacarıqlı, savadlı və əsil ziyalılara xas yüksək keyfiyyətləri olan müəllim kollektivi var. Qazangül qəsəbə tam orta məktəbini ona görə beynəlmiləl adlandırırlar ki, bu təhsil ocağında Zaqatala rayonunda yaşayan bütün xalqların, etnik azlıqların nümayəndələri təhsil alırlar.

### Bu məktəbdə

***qəsəbə ətrafında yeni salınmış, yaşayış massivində yaşayan, təzə köçən gənc ailələrin uşaqları ilə yanaşı, Şuşa, Xocalı şəhərindən Ağdam, digər rayonlardan qaçqın düşmüş və qəsəbədə məskunlaşan ailələrin uşaqları da təhsil alırlar.***

Zaqatala rayon Təhsil Şöbəsinin baş metodisti Aydın Camalova rayonun nümunəvi təhsil olacaqlarından yazmaq istədiyimi bildirəndə O, ürəkdolusu, tam ciddi "Mirzə müəllimin məktəbindən məqalə hazırlayırsız" dedi.

Şübhəsiz ki, Mirzə Hüseynovu Zaqatala rayonunda belə desək yanılmarıq tanımayan yoxdur: gözəl insan, yüksək intellektual, səviyyəli, mədəniyyətli, şirin danışığı olan, əsil təhsil işçisinə malik keyfiyyətlərə malik olan biri. Enişli-yoxuşlu yollardan büdrəmədən keçib. Məktəblilərin təlim-tərbiyəsində saç ağardaraq hörmət qazanıb - Mirzə müəllim.

***Daim iş başında olan Mirzə Hüseynovla - Qazangül qəsəbəsində İsmət Qayıbov adına tam orta məktəbində görüşdük. Məlum xəstəlik virusu (COVİD-19) ilə əlaqədar bu il mart ayının 4 -dən tədris dayandırılsa da, buraxılış imtahanlarının yekunları ilə əlaqədar tətbiq edilmiş qaydalara riayət etmək şərti ilə məktəbin pedaqoji kollektivi direktorla birlikdə müzakirələr aparırdılar. Qeyd edək ki, məktəbdə tədris keçirilməsə də məktəbdə tez-tez təmizlik, abadlıq və dizenfeksiya işləri aparılır.***

Bu məsələni xüsusilə qeyd edə bilərik ki, Qazangül qəsəbə tam orta məktəbinin yerləşdiyi bina, rayonda, bəlkə də respublikada əsil təhsil müəssisəsi üçün müasir üslubda inşa edilən yeganə məktəb binasıdır. Əvvəllər bu məktəb qəsəbədə darısqal və köhnə binada yerləşib. Təhsil Nazirliyinin, Zaqatala Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə 2008 -ci ildə Neft Şirkətinin maliyyə dəstəyi ilə 3 mərtəbəli, tədris üçün bina inşa edilərək şagirdlərin istifadəsinə verilib.

### 1998-ci ildən

bu təhsil müəssisəsində direktor işləyən Mirzə müəllim məktəbdə müasir dövrün tələblərinə uyğun nizam-intizam, təhsil və təlim prossesi yaradıb. O, məktəbin işgüzar, savadlı pedaqoji kollektivi ilə birlikdə müxtəlif millətlərin təhsil aldıqları məktəbi - rayonun birinci sırada gedən məktəblərindən edib.





***Çünki, Mirzə müəllimin özü də ömür yolunda pillə-pillə qalxmaq üçün çox çətinliklərlə üzləşib. Özünü bu dağlar diyarı Zaqatalanın oğlu hesab edən - Mirzə Hüseynov əslən Qərbi Azərbaycanın Basar Keçər rayonundandır. Öyrəndik ki, 1972 -ci ildə orta məktəbi bitirib, müəllim olmaq arzusu ilə sənədlərini Həsənbəy Zərdabi adına Gəncə Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsinə verib və 1976 -cı ildə oranı müvəffəqiyyətlə bitirib, təyinatla Zaqatala rayonuna gəlib. Mirzə müəllim pedaqoji fəaliyyətinə gənc müəllim kimi Zaqatala rayonunun dağ kəndi olan Qalal kəndindən başlayıb.***

O, beş il bu kənddə müəllim işlədikdən sonra təhsil şöbəsinin təşəbbüsü ilə iş yerini rayonun Gözbarax kənd orta məktəbinə dəyişdirib. Yeddi il bu təhsil ocağında sevimli fənnini şagirdlərə yüksək sevgiylə tədris edən Mirzə müəllim, əsasən etnik azlıqlardan olan saxurların yaşadıqları bir - iki kənddə böyük hörmət qazanır.

Pedaqoji sahədə təcrübəsini ildənilə artıran Mirzə müəllimin dərs dediyi şagirdlərindən xoş soraqlar eşidən də isə o, daha da fərəhlənir və müəllimlik peşəsinə daha da ha da bağlanır.

Azərbaycanımızın qızılgüllər diyarı kimi tanınan Zaqatala rayonunda pedaqoji fəaliyyəti ilə hörmət qazanan Mirzə Hüseynov 1988 -ci ildən isə həmin fəaliyyətini Qazangül qəsəbəsində beynəlmiləl məktəbində davam etdirir. Nəhayət ki, 1998 -ci ildə Rayon Təhsil Şöbəsinin rəhbərliyi sadə, təzazövkar ziyalı - Mirzə Hüseynovu həmin məktəbə direktor təyin edir.

***Yüksək dağ cığırlarından müəllim kimi fəaliyyətə başlamış Mirzə müəllim bu diyarı özünə doğma sayır və gözəl, alicənab bir Zaqatala qızı ilə ailə qurur. Mirzə müəllim sevimli həyat yoldaşı ilə 2 qız və 1 oğlan böyüdüb, yerbəyer edib, ali təhsil verib.***

Həmişə nurlu təbəssümü olan Mirzə müəllim rəhbərlik etdiyi kollektivdə 33 nəfər ali, 2 nəfər orta ixtisas təhsilli pedaqoji işçilər çalışırlar. Məktəbdə hal-hazırda 303 nəfər şagird təhsil alır. Ötən tədris ilində isə məktəbi 20 nəfər şagird bitirib və onlardan 10 nəfəri yüksək balla respublikamızın və xarici ölkələrin ali məktəblərinə daxil olublar.

### Direktorun sözlərinə görə

2018/2019/2020 -ci tədris ilində məktəbi yüksək balla bitirən məzunlardan Emin Kovalin Madrin Tibb Universitetinə, Nərmin Qarayeva isə Azərbaycan Dövlət İqtisad Universitetinə qəbul olunublar. Hal-hazırda məktəbi bitirən məzunların bir qrupu Rusiya Federasiyasının, Ukrayna Respublikasının, Belarus Respublikasının, Gürcüstan Respublikasının, hətta Avropa və Asiya ölkələrinin ali məktəblərində təhsillərini davam etdirirlər.

Mirzə müəllim söhbət zamanı birdirdi ki, 2019/2020 -ci tədris ilində məktəbin IX sinfini 25 nəfər, XI sinfini isə 17 nəfər bitirir. Artıq, buraxılış imtahanları yekunlaşıb, dərs məşğələləri mart ayını əvvəllərindən dayandırılsa da, məktəbin şagirdləri daim məktəbin müəllimləri ilə sıx əlaqədə olublar, onlayn və distant qaydalarda dərs məşğələlərində iştirak ediblər. Eyni zamanda şagirdlər müxtəlif fənnlər üzrə hazırlıq kurslarına gediblər.

Qazangül qəsəbə İsmət Qayıbov adına beynəlmiləl tam orta məktəbində həm də güclü idmançılar yetişir.

### Məktəbli idmançılar

tez-tez respublika və beynəlxalq yarışlarda iştirak edirlər. Həmin məktəbin X sinif şagirdi Rüfət Azad oğlu Devricov isə məktəbdə əla oxumaqla, ictimai tədbirlərdə fəal iştirak etməklə yanaşı, idman sahəsində də çoxlu uğurlar qazanıb. Məktəbin direktoru yeniyetmə idmançı haqqında danışarkən bildirdi ki, Rüfət idmanın əvvəllər Sərbəst Güləş növü ilə məşğul olsa da hal-hazırda idmanın ən çətin və mürəkkəb sahəsi olan qol güləşi ilə məşğul olur. Qeyd edək ki, Rüfət Dervicov Şəki-Balakən zonasında yeganə idmanın bu növü ilə məşğul olan idmançıdır. Məktəbli idmançı artıq Respublika Qol Güləşi Federasiyasının üzvüdür və dəfələrlə respublika, Bakı çempionatlarının qalibi olub. Mirzə müəllim dedi ki, Rüfət sonuncu qələbəni karantin rejimindən əvvəl-fevral ayında, Bakı çempionatında qazanıb. Özündən yaşda böyük və fiziki cəhətdən güclü olan rəqiblərə qalib gələn Rüfət I yeri tutub. İndi isə o, atasının məşqçiliyi ilə şəxsi idman zalında beynəlxalq yarışlara hazırlaşır. Sənə əhsən deyirik Rüfət, qələbələrin davamlı olsun!

***Yuxarıda qeyd etdiyimiz kimi, məktəbin gözəl və mehriban pedaqoji kollektivi var. Onlar xeyirdə, şərdə bir yerdədirlər. Çünki, bu kollektivə Mirzə Hüseynov kimi təcrübəli, səmimi və mehriban ziyalı rəhbərlik edir. Mirzə müəllim həm də rayonun ictimai işlərində də çox fəaldır. O, neçə illərdir ki, seçki məntəqəsinin sədridir və seçkilərin şəffaf keçməsi üçün çalışır.***

Belə bir beynəlmiləl - Qazangül qəsəbə tam orta məktəbinin direktoru olan Mirzə müəllimə sonuncu sualım belə oldu:

"Bəs Sizin pedaqoji fəaliyyətiniz mükafatlandırılıbmı, Fəxri ad almısınızmı?" Cavab isə qısaca oldu: "Mənim ən böyük mükafatım, mənim şagirdlərimdir və onların arzularına çatmalarıdır".

**Bəli, Zaqatala rayonunun nümunəvi təhsil ocaqlarından olan - Qazangül qəsəbəsi, İsmət Qayıbov adına tam orta məktəbi və məktəbin direktoru, nurlu, ziyalı Mirzə Hüseynovdan söhbət açdıq. Məktəbin kollektivinə isə "uğurlarınnız yetərli olsun" deyirik.**

**Elman Maliyev**
**AJB-nin üzvü**

# Kazinoda oynama, vergidən azad ol



**Vergi ödənişi ilə bağlı bu maraqlı metod Monako knyazlığında tətbiq edilir. Knyazlığın ərazisində yerləşən Monte-Karlo şəhəri öz kazinoları ilə məşhurdur.**

Adalet.az xəbər verir ki, Monte-Karlo kazinolarında yalnız əcnəbi vətəndaşlar oynaya bilərlər. Bu barədə qərar hələ XIX əsrdə, şəhərdə oyun sənayesinin inkişaf etdirilməsi planlaşdırılarkən qəbul olunub. Yerli sakinlər isə kompensasiya kimi gəlir vergisi ödəməkdən azad ediliblər. Baham adalarındakı kazinolarda da oxşar qadağa tətbiq olunub. Bu qərarı qəbul edənlər həm də öz vətəndaşlarının mənafelərini düşünüblər.

# Özünə 6600 manatlıq qızıl maska düzəltdirdi



**Hindistanlı biznesmen Şankar Kurade koronavirusdan qorunmaq üçün 289 min rupi dəyərində (təqribən 6600 AZN) maska düzəltdirib.**

Adalet.az "RİA Novosti"ə istinadla xəbər verir ki, o, bu addımı ilə yerli və beynəlxalq medianın diqqətini üzərində cəmləyib.

Bildirilir ki, o, başqa bir kişidə gümüşdən maska gördükdən sonra zərgərə belə bir sifariş verib. Kuradenin sözlərinə görə, 2,5 kq qızıldan hazırlanan maskada nəfəs almaq üçün kiçik dəlik var. "Qızıl maska ilə küçəyə çıxanda hamının diqqət mərkəzinə düşdüm. Ailəmin qızıla olan marağı bu tərəflərdə məşhur olsa da, qızıl maska tam yenilik idi, ona görə insanlara maraqlı gəlir", - deyə o bildirib.

# Daha bir tanınmış şəxsin var-dövlətinin siyahısı açıqlandı

**Dünyanın ən gənc milyarderi ünvanına sahib olan Kayl Cennerin var-dövlətinin siyahısı açıqlanıb.**



Adalet.az xəbər verir ki, Cennerin 1 ildə 130 milyon dollarlıq alış-veriş etdiyi məlum olub. Bundan başqa, Los-Ancelesdə 36,5 milyon dollarlıq malikanəsinin, 15,5 milyon dollar dəyərində ərazisinin və 3,5 milyon dollarlıq villasının olduğu ortaya çıxıb. Sərvətində saxtakarlıq etdiyi iddia olunan Kayl bu qalmaqalda menecerliyini edən anası Kris Cenneri günahlandırıb. İddialara görə, Kayl özünü layihə olaraq istifadə etdiyi üçün anasını ittiham edir və artıq onunla birlikdə işləmək istəmir.

**Eminquey**

# Misir fironlarının məzarına qoyulan, yaxud "Quran" da adı keçən cənnət meyvəsi...

**İndi yay fəslinin elə vaxtıdırki, Aran rayonlarında eləcə də Abşeron yarımadasında - Bakı bağlarında bal kimi şirin əncir ağaclarının, necə deyərlər ”burun-budağ”ı yerə dəyir. Hər meyvəni mövsümündə yemək sağlamlıq baxımından daha önəmli sayılır. Yay fəslinin ən faydalı meyvələrindən biri də əncirdir.**

### *Əncirin tarixi*

Yer üzündə 750 -dən çox əncir növü olduğu söylənilir. İnsan təxəyyülünə bu qədər təsir edən başqa bir bitki olmayıb. Əncir haqqında bütün dinlərdə söz açılır, o, kralları, kraliçaları, elm adamlarını, əsgərləri təsiri altına ala bilib.

Müqəddəs ”Quran”ımızda bu adda surə də var ”Əncirə və zeytuna and olsun”. (Tin surəsi, 1). Hətta hədislərin birində deyilir: Peyğəmbərimizə (səlləlləhu aleyhi vəsalləm) birisi əncir verir, alandan sonra belə buyurur: ”Əgər məndən cənnətdən hansı meyvə gəlmişdir soruşsalar, əncir deyərəm.” Enerji ilə dolu bu meyvə, insanın beyninin böyüməsinə fayda verə bilər. Belə ki, bəziləri insan əlinin, əncirin yetişmişini tapıb yığa biləcək formada təkamül etdiyinə inanırlar. Əncir ağacı min illər öncə insanın ilk əkib yetişdirdiyi bitiklərdəndir.

Qədim Misir fironlarının məzarına başqa şeylərlə yanaşı, quru əncir də qoyularmış.

Əncir ağacı insan təkamülündə və mədəniyyətin yaranmasında da rol oynayıb. Bu ağaclar həm tarixə şahidlik edib, həm də onu formalaşdırıb. Əgər bu ağaclara düzgün yanaşsaq, gələcəyimizi də zənginləşdirə bilərik.

Çiçək açan bir çox bitki çiçəklərini nümayiş etdirsə də, latınca adı Ficus olaraq bilinən əncir bitkisinin çiçəkləri, içi boş meyvələrin içində gizlənir. Bundan başqa, bir çox bitkinin kökləri yerin altına inkişaf etdiyi halda, bəzi əncir növlərində köklər, yerin üzərində böyüyür.

### *Ənvir və əncir qurusunun faydaları*

***Əncir dadlı, şirin olmasından başqa həmçinin çox effektli müalicəvi vasitədir. Həkim-fitoterapevt Füzuli Hüseynovun əncirin faydaları haqqında danışarkən bildirir ki, liflərlə ən zəngin meyvələrdən biri olduğundan mədə və bağırsaqların işini normallaşdıran, şlaklardan təmizləyən ən yaxşı təbii vasitə hesab olunur.***

***Əncir ziyanlı xolesterin səviyyəsini qısa zamanda salmaq gücünə malikdir, bunula da əncir ”ürəyimizin dostudur”, deyə bilərik. Əncirin tərkibindəki kalium ürək əzələsinin vurma gücünü artırır, bizi infarktdan qoruyur. Əncirin tərkibində fenol adlı bir maddə var. Sintetik fenol zəhərli olsa da, əncirin tərkibindəki fenol orqanizmə mənfi təsir etmir, əksinə mədə-bağırsaqlarda parazitlik edən mikroorqanizmləri öldürür.Bu səbəbdən də əncirdən lyambliya və başqa mikroorqanizmlərin törətdiyi xəstəliklərin müalicəsində istifadə oluna bilər.***

Arıqlamaq istəyənlər üçün əncir idealdır, tərkibində yağ yoxdur. Yüngül işlədici xüsusiyyəti sayəsində bağırsaqlardakı toksinləri təmizləyir, piylənmənin



qarşısını alır. Əncir bütün meyvələrin içərisində ən çox minerala sahibdir. 50 qram əncirdə 280 mq kalium, 60 mq kalsium, 1.5 qram dəmir var. Uzun sürən xəstəliklərdən sonra orqanizmi bərpa etmək üçün ən yaxşı qidalardan biri əncirdir. Əncirin təzəsi kimi qurusu da mineral tərkibini və faydalı xüsusiyyətlərini saxlayır.

Quru əncirin tərkibində Omeqa-3 və Omeqa-6 yağ turşuları vardır ki, insan orqanizminin özündə istehsal olunmur. Bu turşular sayəsində bizim ürək, qan-damar sistemlərimiz mükəmməl işləyir,Beynimiz bu turşular sayəsində çalışır. Bəzi xəstələrin qanında kalsium çox olur, sümüklərində isə az, yəni sümüklərin kalsiumu mənimsəməsi zəifləyir.

***Uşaq və böyüklərdə yuxarı tənəffüs yollarının bronxit, bəlğəmli öskürək kimi xəstəlikləri və səs tutulması zamanı 300 qram südün içinə 5-6 ədəd quru əncir atılır, 5 dəqiqə qaynadılaraq gün ərzində yavaş-yavaş içilir.***

Ortadan yarı bölünmüş əncir meyvəsinin görünüşü qadın yumurtalığının strukturunun tam bənzəridir. Məlum olmuşdur ki, əncir qadınlarda follikulun yetişməsi prosesini sürətləndirir,Bununla da qadın sonsuzluğunu müalicə edir.

Əncir, həmçinin kişilərdə aktiv spermanın miqdarını əhəmiyyətli dərəcədə artırır, bununla da kişi sonsuzluğunun qarşısını alır.

Səhər quru ənciri zeytun yağının içinə atın, günorta yeməkdən əvvəl yeyin. Günorta atıb axşam yeyin, axşam atdığınızı isə səhər yeyin. Bu üsulla 1 ay müddətində yeyilən əncir qurusu bronxit, bronxial astma, mədə xorası, qastrit, bağırsaq yaraları, babasil, qəbizlik, yüksək xolesterin, osteoporoz, prostatit, ezofagit (qida borusu yarası), öd durğunluğu, pankreatit kimi xəstəlikləri müalicə edir.

Əncir ana südünü artırır, əzələ qıcolmalarını götürür, yüksək qan təzyiqini salır. Əgər çay içən zaman qənd əvəzinə quru əncir istifadə etsək, bədənimiz sağlam olar.

### *Əncir südü və yarpaqları*

***İbn Sinaya görə, əncirin süd şirəsi içilsə, sidikqovucu təsirə göstərər və böyrəklərdəki qumu əridər. Onun südü əqrəb sancmasına da kömək edir. Yeməkdən əvvəl əncir yeyilərsə, adamı kökəldir və mədəni yumşaldır.***

Xalq təbabətində müalicəvi məqsədlə yalnız əncirin özündən yox, həm də yarpaqlarından istifadə edilir. Onun tərkibində qətranlı maddələr, furokominlər, P,C vitaminləri və üzvü turşular mövcuddur. Yarpaqların həlimi və cövhərini öskürək, bronxial astma və böyrək xəstəliyində qəbul edirlər, tər-tər yarpaqları isə çibanların üzərinə qoyurlar. Cavan budaqlardan dərilmiş yarpaqların həlimi sinqaya qarşı bir vasitə kimi istifadə olunur.

**Əncir mürəbbəsi və əncir ağacının yarpaqlarının cövhərini şəkər xəstəliyində qəbul edirlər. Əncir südü ağrıkəsici vasitə kimi zədələrdə, revmatizmdə, lüumbaqo, podaqrada istifadə edilir. Gürcüstanda əncirin yetişmiş meyvəsindən qatı ekstrakt hazırlayaraq onu sidikqovucu kimi və ürək xəsəliyinin yüngül formasının müalicəsində istifadə edilir.**

**Əntiqə Rəşid**

---

***Xuraman Əlişqızı***

## *Ömür yolum*

**Ömür yolum sona çatır,**
**Sonda məni nə gözləyir?!**
**Bu dünyadan köçənlərtək**
**Torpaq, əbədi gözləyir!**

**Ürəyimdə yaralar çox,**
**Ümidlər yaşatdı məni!**
**Günahsızam, bəlkə də yox?!**
**Tanrım bağışlasın məni!**

**Yurd həsrəti, bu, bir yara,**
**Qaçqın ”damğa”sı bir yara,**
**Dağılan qəbirlər yara,**
**Sındırmasın həyat məni!**

**Son arzumdur, bu dünyada,**
**Xilas olsun Qarabağım!**
**Dağılan o məzarlıqda,**
**Atamın qəbrini tapım,**
**Torpağın bağrıma basım!**

## *Qalx ayağa, Füzulim!*

**Göy üzü qara bulud,**
**Duman hər yeri tutub.**
**Zülmət işığı udub,**
**Qalx ayağa, Füzulim!**

**Dağıldı evlərimiz,**
**Viran qaldı elimiz,**
**Odsuz yandı sinəmiz,**
**Qalx ayağa, Füzulim!**

**Həyatın üzü dönük,**
**Arzular artıq sönük,**
**Yurda həsrət ömürlük?!**
**Qalx ayağa, Füzulim!**

**Açılan güllər solar,**
**Həyat mənsiz də olar,**
**Əbədi Tanrı olar,**
**Qalx ayağa, Füzulim!**

**Boş qalıb sağım-solum,**
**Yanıma düşüb qolum,**
**Bircə sənə qovuşum,**
**Qalx ayağa, Füzulim!**

---

## *"Yeşil cam"ın tanınmış siması Tunç Okan 78 yaşında*



**Türkiyəli kinorejissor, ssenarist, prodüser və aktyor Tunç Okanın 78 yaşı tamam olur. "Yeşil cam"ın tanınmış siması olan akttor 18 avqust 1942-ci ildə İstanbul şəhərində anadan olub.**

Adalet.az xəbər verir ki, əsl adı Okan Külendir. İstanbul Universitetinin stomotologiya fakültəsində ali təhsil alıb. Bir müddət ixtisası üzrə çalışıb. Kinematoqrafiyaya aktyor olaraq gəlib. Bir müddət ölkə xaricində yaşayıb. İlk tammetrajlı rejissor debütü olan "Otobüs" filmi Türkiyədə uzun müddət "qara siyahıda" olsa da, bir çox beynəlxalq kinofestivallarda mükafat qazanıb. Daha çox "Mersedes mon amour" (1993), "Avtobus" (1973), "Ümid üzümləri" (2013) filmləri üzərində gördüyü işə görə tanınır.

Tunç Okan 3 dəfə evil olub. İlk həyat yoldaşı bir türk, İtalyan olan İkinci xanımından iki qızı və fransız olan sonuncudan bir oğlu vardır. Hazırda aktyor Fransada yaşayır

**Əntiqə**

## *"Barselona" Kumanın təyinatını açıqladı*

**Ronald Kumanın "Barselona"ya baş məşqçi təyinatı rəsmiləşib.**

Qol.az xəbər verir ki, 57 yaşlı mütəxəssislə 2022-ci ilin yayına qədər müavilə imzalanıb. "Barselona"ya görə 2018-ci ildən çalışdırdığı Niderland millisindən ayrılan Kuman yeni komandasında bir neçə gün əvvəl istefaya göndərilən Kike Setyeni əvəzləyib.

Qeyd edək ki, niderlandlı mütəxəssis 1998-2000-ci illərdə Kataloniya klubunda köməkçi məşqçi kimi çalışıb.

**O, futbolçu kimi də 1989-1995-ci illərdə bu komandanın şərəfini qoruyub.**

---

# ARB-dən ayrılan Rövşanə Ağasəfqızı: "Kanalın reytinqi yoxdursa..."

**ARB telekanalı Bektaşi soyadı ilə tanınan, məşhur teleaparıcı Rövşanə Ağasəfqızı ilə yollarını ayırıb.**

Adalet.az xəbər verir ki, işdən çıxmasını News24.az-a təsdiqləyən aparıcı bildirib ki, heç bir səbəb göstərmədən televiziya rəybərliyi onun müqaviləsinə xitam verib:

”Pandemiya dövründə müqaviləyə xitam verilməsi nə dərəcədə doğrudur?

Bu qanunla necə tənzimlənir, onu bilmirəm. Hətta bu pandemiya dönəmində işçilərin işdən çıxarılmaması ilə bağlı dövlət başçısının da tövsiyəsi var. Lakin bildiyim tək şey odur ki, müqaviləyə xitam verilib. Konkret heç bir səbəb yoxdur. ARB-dən ayrılan tək mən deyiləm, bir neçə aparıcı işdən çıxıb”.

Teleaparıcı bildirib ki, iş ilə bağlı gələcək planları da elə peşəsi ilə bağlıdır: ”Peşəm teleaparıcılıq, telejurnalistikadır. Demirəm ki, başqa sahədə işləmək düşüncəmdə yoxdur. O da ola bilər, amma yəqin ki, yenə də televiziyada fəaliyyətimi davam etdirəcəyəm. Ümumiyyətlə, gələcəklə bağlı hələ heç nə deyə bilmərəm. Təkliflər olduğu halda dəyərləndirəcəyəm. Təbii ki, mənə uyğun layihə olmalıdır. Mən efirdə belinə şal bağlayıb, haxışta deyənlərdən ola bilmərəm. Efirdə atılıb düşmək mənim imicimə, xarakterimə uyğun deyil. Normal tok-şou olarsa razılaşa bilərəm”.



Rövşanə Ağasəfqızı qeyd edib ki, əksər hallarda reytinqsiz telekanallar bunda aparıcını günahlandırır: ”Kanalın reytinqi yoxdursa, günahı aparıcıda görmək lazım deyil. Aparıcı olaraq öz reytinqimi hər zaman bilmişəm.

Adi bir statusum hadisəyə çevrilirsə, verilişlərdən çıxarışlar trendə düşürsə, bunu aparıcı olaraq öz reytinqim kimi dəyərləndirirəm. Bütün tamaşaçılar da bilir ki, Rövşanə Ağasəfqızının aparıcı olaraq reytinqi var. Sadəcə olaraq kanal reytinqsiz olanda günahı aparıcıda görürlər.

Telekanalda mənə verilişin reytinqinin aşağı olduğunu dedilər. Ola bilər. Mənə maraqlıdır ki, bütün sosial şəbəkələrdə veriliş yayımlanan günün sabahı trendə düşən kadrlar olur. Reytinq efirə çıxıb ağzına gələni danışmaq deyil. Veriliş xınayaxdı məclisi deyil. Verilişdə bağırmaq, söz atmaq reytinq yığmaqdırsa, mən onu bacarmayacam”.

**Qeyd edək ki, Rövşanə Ağasəfqızı2013-cü ildə Təkamül və İnteqrasiya İctimai Birliyinin ”Mətbuatın dostu” mükafatına layiq görülüb.22 iyul 2015-ci ildə aparıcı ”Həsən bəy Zərdabi”mükafatına layiq görülüb, təltif edilib.**

**Əntiqə**

---

## *Xalq artistinin dəyişimi göz oxşadı*



**Müsahibələrinin birində "Yaş mənim özüm, tarixim, yaxşısıyla, pisiylə illərim deməkdir. Bu, mənim illərimdir. Keçmişimi heç vaxt dana bilmərəm. Nə geridə qalanı, nə də gələcəkdə yaşayacağımı. Hər yaşın öz gözəlliyi var. Yaşımın üstünə yaş gəlməyi məni qorxutmur, əksinə sevinirəm. Yaşım artmalıdır ki, övladımın ən gözəl illərini görə bilim" deyən Xalq artisti Zülfiyyə Xanbabayevanın yaşlanmadığının qənaətinə gəlirik. Sevilən müğənnidən xəbər var.**

Adalet.az xəbər verir ki, ifaçı sosial şəbəkədə yeni fotolarını paylaşıb. Onun imicində olan dəyişiklik diqqətdən qaçmayıb. Belə ki, ifaçı saçlarını kəsdirib və yeni görkəmi izləyicilər tərəfindən bəyənilib. Qeyd edək ki, Xalq artisti Zülfiyyə Xanbabayeva həyat yoldaşı Zaur Məmmədovla 22 ildir ailəlidir. Bu ailəlikdən onun Dəniz adlı qızı var.

**Əntiqə**

---

# Azərbaycan əsilli Bahh Tee ikinci dəfə evləndi: Toyunda...

**İctimaiyyətimiz əslənAzərbaycan Respublikasının Ağcabədi rayonundan olanməşhur rusiyalı müğənni Bahh Tee-ni- Bəxtiyar Əliyevi Tovuz hadisələrində şəhid olmuş hərbçilərimizlə bağlı paylaşım etdkdən sonra daha yaxından tanıdı və bəyəndi.**

O, "Instagram" hesabında Azərbaycan bayrağının fotosunu paylaşaraq, bu şərhi yazmışdı:

"Uşaqlığımı Ağcəbədi şəhərində keçirmişəm. Bura hərbi əməliyyatların sərhədinə çox yaxın yerdədi, ona görə də Azərbaycanın digər rayonlarından fərqli olaraq, burada daha çox qaçqın yaşayırdı. Evlərindən didərgin düşmüş insanlar evimizin qarşısındakı 5 saylı



məktəbin binasında yaşayırdılar. Bəli, belə idi: gecə onlar orada qalırdılar, səhər isə biz oxumaq üçün məktəbə gedirdik.

Dədə-baba yurdlarından didərgin düşmüş insanların ağrılarını görərək böyüdüm. Heç bir uşağa bunu görməyi arzu etmirəm. Adekvat insanlar kimi mən də dünyada, xüsusilə də evimdə müharibə istəmirəm. Hər bir insanın doğma evində rahat yaşamasını istəyirəm".

Ötən ay müğənni sosial şəbəkə hesabından izləyicilərinə COVID-19 virusuna yoluxduğunu və evdə müalicə aldığını bildirsə də. onun keçmiş həyat yoldaşı Fərqanə Həsənova deyib ki, sabiq ərinin koronavirusa yoluxduğuna inanmır. Xanımın belə qalmaqallı açıqlamasından sonra Bahh Tee analizlərin cavabını rəsmi sosial şəbəkə hesabında paylaşdı və hətta sağaldığını da söylədi. Bu qalmaqaldan sonra maraqlı bir addım atdı.

Adalet.az xəbər verir ki, Azərbaycanlı müğənni Bahh Tee ikinci dəfə ailə qurub. İfaçının toyu Moskvada baş tutub. Məclisə Rusiyada məşhurlaşan Jony (Cahid Hüseynli), Hammali (Aleksandr Əliyev), Adil Karaca və başqaları qonaq olublar.

Toyda Azərbaycan mahnıları səsləndirilib, rəqsləri oynanılıb.

**Qeyd edək ki. Azərbaycanlı ifaçı Bəxtiyar Əliyev (Bahh Tee) Rusiyada fəaliyyət göstərən Jara radiosunun (Jara FM) baş prodüseri işləyib. Onu bu posta Azərbaycanın xalq artisti Emin Ağalarov gətirmişdi.**

**Ə.Rəşid**

---

# AZƏRBAYCANDA BİR KOMANDADA ƏN ÇOX QOL VURAN FUTBOLÇULAR

**Azərbaycan çempionatında bir komandanın heyətində ən çox qol vuran futbolçuların adları açıqlanıb.**

Qol.az xəbər verir ki, siyahıda 10 futbolçu yer alıb.Birinci pillədə ”Qarabağ”ın sabiq futbolçusu Müşfiq Hüseynovdur. Onun aktivində 109 qol var. ”Neftçi”də 99 dəfə qapını dəqiq nişan alan Samir Ələkbərov 2-cidir. İlk 3-lüyü ölkə çempionatlarının ən yaxşı bombardiri Nazim Əliyevlə Alay Bəhramov qapayır. Onlar müvafiq olaraq Sumqayıt ”Xəzər”i və ”Viləş”də 93 dəfə fərqlənib. İlk onluq-da ”Neftçi” və ”Kəpəz” daha çox - hərəyə üç futbolçu ilə təmsil olunub.

**Azərbaycanda bir komandada ən çox qol vuran 10 futbolçu**



| | | |
|---|---|---|
| 1. Müşfiq Hüseynov | ”Qarabağ” | 109 |
| 2. Samir Ələkbərov | ”Neftçi” | 99 |
| 3-4. Alay Bəhramov | ”Viləş” | 93 |
| Nazim Əliyev | ”Xəzər” | 93 |
| 5. Fazil Pərvərov | ”Kəpəz” | 80 |
| 6. Rövşən Əhmədov | ”Kəpəz” | 75 |
| 7. Qurban Qurbanov | ”Neftçi” | 66 |
| 8-9. Nadir Nəbiyev | ”Turan” | 63 |
| İmamyar Süleymanov | ”Kəpəz” | 63 |
| 10. Yunis Hüseynov | ”Neftçi” | 58 |

---

DƏDRX 3 saylı Gəncə Ərazi İdarəsi tərəfindən Ələkbər Seyfi küçəsi, 4-cü dalan, ev 14 A-ya aid Bayramov Firdovsi Yaqub oğlunun adına verilmiş 20.02.1991-ci il tarixli 4624 nömrəli Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran Şəhərinin 18-ci məhəlləsində yaşayan Ağayeva Təranə Valeh qızına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-3934 A kod80201002) itdiyi üçün etibarsız sayılsın.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının 1997-ci il 01 noyabr tarixli 14 nömrəli qərarı ilə Quba rayonu ll Nügədi kənd sakini Hacıyev Nəcəf Ağakərim oğlunun adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-873 Kod 30320018 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Quba rayonu Aqrar İslahat Komissiyasının 20 iyun1997-ci il tarixli 14 saylı qərarı ilə Quba rayonu ll Nügədi kənd sakini Şükürova Əzirə Yusif qızının adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-1845F Kod 30319018 Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran tikiş ASC-nin səhmdarlarının reystrdən çıxarışı,texniki pasportu , Nizamnaməsi,əsasnaməsi ,'Emissiya' planı,vöyn,Möhür və künc ştampı itdiyi üçün etibarsız sayılsın.

***

Əliyeva Həqiqət Əhəd qızının adına Bakı şəhər, Xətai rayonu, Müşfiq küçəsi 8 mənzil 2 ünvanının Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Lənkəran rayonu Hirkan kənd sakini Əliyeva Həqiqət Nüsrət qızına 23 yanvar 1998-ci il tarixində 1 saylı qərar ilə verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şahadətnamə (JN-347A kod 80203016) itdiyi üçün etibarsız sayılsın.

***

Quba şəhəri Səkinə Axundzadə (Ağamalıoğlu) küçəsi ev 38 ünvanda yaşayan Xudaverdiyev Vüsal Şahin oğluna 26 avqust 2009-cu il tarixdə verilmiş AO 1107347 nömrəli Hərbi bilet itdiyi üçün etibarsız sayılır.

---

Məzahir Əhmədzadə Qax Rayon SSİ-nin rəisi **Sultan Camalova**

**HƏYAT YOLDAŞININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Azərbaycan” Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 22**
Çapa imzalanmışdır: 19.08.2020